

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Ermənistan tərəfi anlamalıdır ki..."



4

SƏS

№ 147 (6830)

18 avqust 2023-cü il.
Qiymәti 60 qәpik

# Yüksək inkişafa və rifaha əsaslanan siyasət

*PREZİDENT İLHAM ƏLİYEVİN Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfəri regionların inkişafına olan diqqətin əyani təzahürüdür*



2

## Erməni diplomatiyasının üzləşdiyi növbəti

# FİASKO!








8

## Azərbaycan-İndoneziya dostluq telləri daha da möhkəmlənir



9

## Hansı yaxşıdır: diplomlu işsiz, ya peşə təhsilli mütəxəssis?



10

## "Böyük Qayıdış"ın "Füzuli salnaməsi"



15



## "Hraparak" nəşri: "Bu proses erməni ordusunda təşvişə səbəb olub"

10

## Müslüm Maqomayev: bir ömür "Azərbaycan"



12

# Yüksək inkişafa və rifaha əsaslanan siyasət

*PREZİDENT İLHAM ƏLİYEVİN Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfəri regionların inkişafına olan diqqətin əyani təzahürüdür*

Dünya birliyinə sürətlə inteqrasiya olunaraq demokratik inkişaf yolunda atdığı ardıcıl addımlarla regionda böyük nüfuz sahibinə çevrilən müstəqil Azərbaycanın qısa zamanda əldə etdiyi böyük nailiyyətlər, ilk növbədə, hər bir vətəndaşın mənafeyinə xidmət edən təkmil sosial-iqtisadi inkişaf strategiyasına əsaslanır. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi islahatları bütün sahələrdə inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev son 20 ildə regionların sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlamış, bu istiqamətdə kompleks tədbirlər həyata keçirmişdir. "Bizim iş üslubumuz belədir: bölgələrdə problemi müəyyən etmək, onun həlli üçün lazım olan yolları müəyyən etmək, axtarmaq və tədbirlər planı hazırlamaq. Bunu etmək üçün artıq bizim maliyyə imkanlarımız da var" - deyən dövlət başçısının həyata keçirdiyi uğurlu strategiya nəticəsində Azərbaycan qısa müddətdə dünyanın sürətlə inkişaf edən, bütün sahələrdə yeniləşən dövlətlərindən birinə çevrilmişdir.

## BÖLGƏLƏRƏ HƏR SƏFƏR İNKİŞAFA TÖHFƏ VERİR

Bəli, Azərbaycan Prezidentinin hər il mütəmadi olaraq regionlara hər səfəri ölkəmizin inkişafına böyük töhfələr verir. Çünki Azərbaycanın yüksəlişinin əsas göstəriciilərindən biri regionların davamlı inkişaf yoluna çıxarıl-





masıdır. Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissələrindən biri kimi son 20 ildə bütün şəhər və rayonların iqtisadi potensialı hərəkətə gətirilib, əhalinin məşğulluğunun artırılması, sosial ri-

əsası isə, birgünlük səfər, əslində, yüz illər boyu bölgə əhalisinin rifahına və rahatlığına xidmət edən səfərdir. əcək. Çünki bu sfər çərçivəsində rayonun inkişafı üçün çox mühüm açılışlar və təqdimatlar reallaşır. Bir sözlə

naşı, həm də görülən işlərin həcmini göstərir. Belə ki, bütün səfərlərində olduğu kimi, Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfəri çərçivəsində su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi, avtomobil yolları və mebel fabrikinin, Şəmkirdə məktəbliseyin, Samuxda Mərkəzi Xəstəxana və uşaq musiqi məktəbinin yeni binalarının, Bərdədə Qarabağ Regional DOST Mərkəzi və Qarabağ Regional Peşə Hazırlığı Mərkəzinin açılışlarını etməsi sübut edib ki, bizim üçün prinsipial məsələ olan azad edilmiş ərazilərin bərpası ilə yanaşı, digər regionlar da möhtərəm Prezidentin diqqət mərkəzindədir. Məqsəd isə aydındır - uğurlu iqtisadi artım, yüksək gəlirli iş yerləri yaratmaqla ən azı paytaxt qədər bütün bölgələrimizdə də həyat səviyyəsinin ilbəil yaxşılaşması, insanların yaşadığı ərazidən asılı olmayaraq, iqtisadi imkanlara çıxış bərabər və ədalətli olmalı, daha dəqiq desək, hər bir vətəndaş, o cümlədən paytaxtdan kənarda yaşayanlar öz həyatlarında bu inkişafı hiss etməlidirlər. Bu mənada əminliklə demək olar ki, Prezident İlham Əliyevin Qərb bölgəsinə səfəri həm də

lər, ilk növbədə, insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması təmin edilsin. Bir sözlə, Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir. Bəli, bunun üçün isə əsas məqsəd iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasına nail olmaqdır və bu isə yalnız bölgələrin potensialı hesabına mümkündür. Eyni zamanda regionlarda cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsinin möhkəmlənməsi vacib şərtdir. Onu da vurğulamaq lazımdır ki, 44 günlük qələbəmizdən sonra həm işğaldan azad edilmiş ərazilərimizdə, həm də regionlarımızda böyük quruculuq və bərpa işləri aparılır. Elə avqustun 7-də dövlət başçısının Qazax, Şəmkir, Samux, Bərdə rayonlarına səfəri özündə bütün məqamları ehtiva edir. Dövlət başçısı İlham Əliyevin bu səfərləri bir daha təsdiqləyir ki, hazırkı dövrdə əsas hədəf işğaldan azad edilmiş ərazilərimizin bərpası, yenidən qurulması, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışı olmaqla yanaşı, bütün bölgələrin tərəqqisi prioritetdir. Cənab İlham Əliyevin bu bölgələrdə açılışında və təməlqoyma mərasimlərində iştirak etdiyi sosial obyektlərin açılışı bir daha görülən işləri təsdiqidir. Bir sözlə

## PREZİDENT İLHAM ƏLİYEVİN REGİONLARA HƏR SƏFƏRİ XALQA XİDMƏTİN TƏZAHÜRÜDÜR

Beləliklə də, Qazax, Şəmkir, Samux və Bərdə rayonlarının timsalında bu fikri böyük qürur hissi ilə qeyd edirik ki, cənab İlham Əliyev yalnız işğaldan azad edilmiş deyil, bütün rayonların sosial-iqtisadi inkişafını, yenilikləri özündə əks etdirməsini diqqətdə saxlayır. Həmçinin, bölgələrə səfərlərdən sonra həmin rayonların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi üçün əlavə Tədbirlər Planı təsdiqlənir, Prezidentin Ehtiyat Fondundan böyük məbləğdə vəsaitlər ayrılır.







fahının yüksəldilməsi istiqamətində böyük keyfiyyət dəyişiklikləri baş verib. Ən əsası isə bu səfərlər zamanı verilən dövlət tapşırıqlarının icrası yerində yoxlanılması, baş tutan açılışlar və təməlqoyma mərasimlərinin isə görülmüş işlərin həcminin göstəricisidir.

Elə cari ilin avqust ayının 7-də Prezident İlham Əliyevin Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfəri və səfər çərçivəsində bir çox obyektlərin açılışında və təməlqoyma mərasimlərində iştirakı, regional inkişaf proqramlarının uğurlu icrası və s. kimi mühüm tədbirlər həm ölkənin hərtərəfli inkişafına, həm də xalqın sosial müdafiəsinin güclənlədirilməsinə xidmət edən amillərdir. Ən

## PREZİDENT İLHAM ƏLİYEVİN HƏR SƏFƏRİ, SƏFƏR ÇƏRÇİVƏSİNDƏ AÇILIŞLAR GÖRÜLƏN İŞLƏRİN HƏCMİNİN GÖSTƏRİCİSİDİR

Göründüyü kimi, Prezident İlham Əliyevin Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfəri, orada görülən işlərlə tanışlığı ilk növbədə dövlət başçısının regionların inkişafına olan diqqətin əyani təzahürü olmaqla ya-

göstərmiş oldu ki, dövlət başçısı milli sosial rifah səviyyəsinin davamlı və bütün ölkə üzrə artmasını Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsinə çevirə bilib. Birgünlük səfər, əslində, yüz illər boyu bölgə əhalisinin rifahına və rahatlığına xidmət edəcək. Çünki bu səfər çərçivəsində rayonun inkişafı üçün çox mühüm açılışlar və təqdimatlar reallaşdı.

Dövlət başçısı İlham Əliyev daim bu məqamı xüsusi qeyd edir ki, bölgələrə səfərlərim həm nəzarət üçün bir vasitədir, yəni, verdiyim tapşırıqlar necə yerinə yetirilir, eyni zamanda, növbəti tapşırıqlar, tövsiyələr verilir ki, bölgələrdə bəyan etdiyimiz bütün hədəf-

Beləliklə, yuxarıda sadalananlar bir daha onu göstərir ki, Prezident İlham Əliyevin Qazax, Şəmkir, Samux və Bərdəyə səfəri, orada görülən işlərlə tanışlığı regionların inkişafına olan diqqətin əyani təzahürüdür və Cənab Prezidentin bölgələrə hər səfəri yeni uğurların təməli və müjdəsi kimi dəyərləndirilməlidir.

Bax, budur müasir Azərbaycan həqiqətləri. İnanırıq ki, Prezident İlham Əliyevin Qazax, Şəmkir, Samux və Bərdəyə səfərləri də bu rayonların inkişafının daha da sürətlənməsinə xidmət edəcək.

***RƏFİQƏ KAMALQIZI***

# Bakının ağır cavabı: İrəvanın cəhdləri nə ilə nəticələnəcək?



**Azərbaycan tamamilə haqlı olaraq beynəlxalq təşkilatlardan Ermənistanın Azərbaycana qarşı gün-gündən daha da kəskinləşən nifrət siyasətinə, revanşizm səylərinə biganə qalmayacağını gözləyir. Lakin təəssüflər olsun ki, gözləntilər özünü doğrultmur. Birləşmiş Millətlər Təşkilatı (BMT) başda olmaqla, əksər beynəlxalq qurumlar "humanitar yardım" adıyla siyasi oyunlar oynayan Ermənistana və "blokada" şousu ilə dünya birliyini çaşdırmağa davam edən separatçı rejimə təzyiq göstərmək əvəzinə, onlara dəstək nümayiş etdirir.**

Xüsusən də, BMT Təhlükəsizlik Şurası Ermənistanı işğalçı dövlət kimi tanımaq, İrəvanın Qarabağdakı separatçıları dəstəkləmək siyasətini pisləmək və Azərbaycanın öz ərazisində dövlət suverenliyini bərpa etmək səylərini anlayışla qarşılamaq əvəzinə, separatçılığı təşviq edən addımlar atır. Belə ki, avqustun 16-da BMT Təhlükəsizlik Şurasında Ermənistanın müraciəti əsasında Laçın "dəhliz"inin açılması məsələsinə baxıldı. Ermənistan tərəfi sözügedən iclasda iflasa uğramış "etnik təmizləmə", "blokada" iddialarını yenidən gündəmə gətirməyə və Laçın sərhəd-keçid məntəqəsinin "humanitar yüklər" üçün açılması tələbi ilə Azərbaycana qarşı hansısa qərarın qəbul edilməsinə cəhdlər göstərdi.

Söz yox ki, Ermənistanın bu cür qondarma məsələləri BMT-nin Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarması bu ölkənin Azərbaycana qarşı növbəti təxribatıdır. Bunu, həmçinin, ermənilərin süni gündəm yaratmaq cəhdi kimi də qiymətləndirmək olar. BMT Təhlükəsizlik Şurası isə, öz növbəsində, Ermənistanın bu təxribatına "yaşıl işıq" yandırmamalıydı. Ancaq görünən budur ki, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası böyük dövlətlərin (xüsusən də, ABŞ-ın) təzyiq vasitəsinə, "dəyənəy"inə çevrilib. Eləcə də, erməni lobbisi BMT-nin sülh və təhlükəsizliyə yox, separatçılığa xidmət edən bir təşkilata çevrilməsində mühüm rol oynayır. Ona görə də bu mötəbər beynəlxalq təşkilatın obyektivliyinə inam hissimizin sarsılması təbiidir.

Lakin BMT-nin ermənilərin "rupor"una çevrilməsi Azərbaycanı öz haqlı mövqeyindən əsla çəkindirə bilməz. Bu baxımdan, BMT Təhlükəsizlik Şurasında təşkil olunan Qarabağ müzakirələrini ciddi siyasi nəticələr doğuracaq bir hadisə hesab etmirik. Bu müzakirələrin Azərbaycan üçün ağır mənfi nəticələrə gətirib çıxarması qeyri-mümkündür.

Ola bilsin ki, tövsiyə xarakterli hansısa fikirlər, çağırışlar səsləndirilir, amma rəsmi Bakı bundan sonra da Qarabağda separatçılıq hallarına qarşı qətiyyətli addımlar atılması və ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiya olunması istiqamətində səylərini davam etdirəcək. Heç bir qüvvə Azərbaycanı öz haqlı mövqeyindən çəkindirə bilməz.

Digər tərəfdən, artıq Azərbaycan XİN də bəyan edib ki, Ermənistan Azərbaycana qarşı hərbi təhdidləri davam etdirir. Rəsmi məlumatda qeyd olunub ki, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərinin 44 günlük Vətən müharibəsi nəticəsində azad edilməsindən sonra post-münaqişə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, bu ərazilərdə fəaliyyət göstərən hərbçilərimizə və mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına mane olan əsas təhdidlərdən biri Ermənistan tərəfindən Azərbaycan ərazilərinin son 30 il ərzində məqsədyönlü şəkildə minalanması və davam edən mina basdırılması hallarıdır.

Beləliklə, fakt budur ki, Ermənistan 10 noyabr 2020-ci il tarixli Üçtərəfli bəyanatın 4-cü bəndinə zidd şəkildə Azərbaycan ərazilərində qanunsuz hərbi fəaliyyəti davam etdirərək, qüvvələrini Azərbaycan ərazisindən tam çıxartmamaqla yanaşı, Azərbaycan ərazilərində külli miqdarda piyada əleyhinə minalar yerləşdirməkdə davam edir və bu, yalnız keçmiş təmas xətti boyunca deyil, digər ərazilərdə də insanların minaya düşməsi hallarının artmasına səbəb olur.

SİTAT: "Ümumilikdə, son 30 il ərzində Azərbaycanda mina qurbanlarının sayı 3345 nəfər təşkil etməklə, 2020-ci il Vətən müharibəsinin başa çatmasından etibarən bu günədək 266 vətəndaşımız mina partlayışından zərər çəkib, onlardan 3 nəfər jurnalist daxil 45 nəfər həlak olub. Həlak olan 45 nəfərdən 35 nəfər mülki şəxsdir. Son 30 il ərzində minalardan zərər çəkənlərin isə 38 nəfəri qadın və 357 nəfəri uşaqdır. Cari ilin avqust ayından etibarən erməni əhalinin Laçın rayonu ərazisini tərk etməsindən sonra yalnız Laçın rayonu ərazisində 1400-dən artıq 2021-ci il Ermənistan istehsalı E-001M markalı piyada əleyhinə minalar, habelə cari ilin 3 oktyabr tarixində Laçın rayonunun Zabux və Sus kəndlərində evlərin giriş qapılarında və həyətyanı sahələrdə yeni quraşdırılmış mina tələlərin aşkarlanması təhlükənin miqyası və ağırlığının, regionda Ermənistan tərəfindən sülh və təhlükəsizliyə nə dərəcədə ciddi zərbə vurulmasının göstəricisidir. 2021-ci ildə Ermənistanda istehsal edilən piyada əleyhinə minaların Azərbaycan ərazisinə ötürülməsi bir daha nümayiş etdirir ki, Üçtərəfli bəyanatın 6-cı bəndinə uyğun olaraq Laçın dəhlizinin yalnız vətəndaşların, malların və nəqliyyat vasitələrinin keçidi üçün nəzərdə tutulmasına baxmayaraq, bu yoldan Ermənistanın qeyri-qanuni hərbi fəaliyyətləri üçün sui-istifadə halları davam edir. Bu, eyni zamanda, son onilliklər ərzində Ermənistan tərəfindən guya minaların istehsal və ixrac etmədiyi barədə bəyanatların heç bir əsasının olmadığını nümayiş etdirir".

Qeyd edilənlər bir daha göstərir ki, Ermənistan tərəfi məqsədyönlü şəkildə Azərbaycana qarşı hərbi təhdidləri davam etdirir. Ermənistanın bu fəaliyyəti müharibə cinayətidir, beynəlxalq humanitar hüququn və Ermənistan öhdəliklərinin ciddi pozuntusudur, bunun qarşısı alınması üçün Ermənistana təzyiq edilməlidir. Azərbaycan tərəfi dəfələrlə bu təhdidlərin aradan qaldırılması istiqamətində səylərin səfərbər edilməsi və Azərbaycanın həyata keçirdiyi humanitar minatəmizləmə işlərinə genişmiqyaslı yardım göstərilməsi barədə müraciət edib.

Bu xüsusda, cari ilin 23 avqust tarixində Azərbaycanın Xarici işlər naziri tərəfindən BMT-nin Baş katibi Antonio Quterreşə müvafiq məktub ünvanlayıb və məktub BMT-nin bütün üzvləri arasında yayılıb. Azərbaycan tərəfi, həmçinin, cari ilin sentyabr ayında Ermənistan tərəfindən ərazilərin minalanmasının davam etməsinin Beynəlxalq Ədalət Məhkəməsinin 7 dekabr 2021-ci ildə qəbul etdiyi müvəqqəti qərarları açıq aşkar pozması barədə məhkəməyə rəsmi məlumat verib, aidiyyəti sübutları təqdim edib. Ermənistanın Üçtərəfli bəyanat və beynəlxalq hüquq çərçivəsində öhdəliklərini yerinə yetirməsi, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı fəaliyyətlərdən əl çəkməsi, bütün silahlı qüvvələrini nəhayət, Azərbaycan ərazisindən çıxarması, Ermənistanın fərq qoymadan Azərbaycan ərazilərində mina yerləşdirməsi fəaliyyətini dayandırması, mina təmizləmə fəaliyyəti istiqamətində əməkdaşlıq etməsi və dəqiq mina xəritələrini Azərbaycana təqdim etməsi üçün Ermənistana təzyiq göstərilməlidir. Bu addımlar bölgədə sülh və əmin-amanlığın təmin edilməsinə töhfə verəcək.

Beləliklə, fakt budur ki, Ermənistan açıq-aşkar revanşizm siyasəti yürüdür və bu siyasət söz yox ki, rəsmi Bakının ağır cavabı ilə məhv ediləcək.

***Afət Tahirqızı***

## "İclasda ölkəmizin əleyhinə heç bir sənəd qəbul olunmadı"



"BMT Təhlükəsizlik Şurasının iclasında Ermənistanın və onun havadarlarının Azərbaycana qarşı hansısa sənəd qəbul etmək planı baş tutmadı. Bu, onların fiaskosu oldu". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Deputat bildirib ki, iclasda xüsusilə Ermənistan və Fransa ölkəmizə qarşı açıq qərəz nümayiş etdirdi, regionda vəziyyəti təhrif etdi. Amma qardaş Türkiyə və digər bəzi ölkələr bu məsələdə ərazi bütövlüyü və suverenlik amilini xüsusi vurğuladılar. Eyni zamanda, Ağdam - Xankəndi yolundan humanitar məqsədlər üçün istifadənin zəruriliyini qeyd etdilər. Ən vacib məqam ondan ibarətdir ki, iclasda ölkəmizin əleyhinə heç bir sənəd qəbul olunmadı.

Millət vəkilinin sözlərinə görə, Azərbaycanın BMT-də daimi nümayəndəsi, səfir Yaşar Əliyev çıxış edərək dövlətimizin prinsipial mövqeyini bir daha bəyan etdi. Daimi nümayəndə, Ermənistanın Qarabağda humanitar böhranın olmadığını faktlarla təqdim etdi. Diplomatın nümayiş etdirdiyi foto faktlar qarşı tərəfə böyük zərbə oldu. Çünki bütün bunlar erməni yalanlarını bütün dünyada ifşa etdi. Təsadüfi deyil ki, Ermənistanda bu məsələ geniş müzakirə mövzusuna çevrilib və ifşa olunduqlarını etiraf edirlər.

Sevinc Fətəliyeva qeyd edib ki, Ermənistan və havadarları BMT Təhlükəsizlik Şurası müstəvisində məqsədinə nail olmadı. Bu, dövlətimizin növbəti diplomatik qələbəsi hesab olunmalıdır. Amma onu da bilirik ki, Ermənistan Azərbaycana qarşı çirkin kampaniyanı davam etdirməyə çalışacaq. Beynəlxalq hüquq və ədalət Azərbaycanın tərəfindədir. Dövlətimiz prinsipial mövqeyini bundan sonra da davam etdirəcək. Ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş bütün addımların cavabı qətiyyətlə veriləcək.

## "Azərbaycanın suverenlik hüquqlarına hörmət edilməlidir"

### Türkiyənin BMT-dəki daimi nümayəndəsi Sedat Önal da Azərbaycanın suverenlik hüquqlarına hörmət edilməsinin vacibliyini vurğulayıb



Avqustun 16-da BMT Təhlükəsizlik Şurası Laçın-Xankəndi yolunun guya "bağlanmasından" sonra yaranmış "humanitar böhranı"n müzakirəsi üçün təcili iclas keçirib. Azərbaycan Ermənistanın irəli sürdüyü iddiaların "əsassız" olduğunu bəyan edib. Türkiyənin BMT-dəki daimi nümayəndəsi Sedat Önal da Azərbaycanın suverenlik hüquqlarına hörmət edilməsinin vacibliyini vurğulayıb.

Türkiyənin BMT-dəki daimi nümayəndəsi Sedat Önal Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının iclasında (BMT TŞ) çıxış edib.

Sedat Önal deyib: "Biz bölgədə hərtərəfli sülh, sabitlik və əməkdaşlıq üçün tarixi fürsətin yarandığına inanırıq. Bu məqsədlə biz Ermənistanla tam normallaşma prosesinə sadiqliyimizi ifadə etmişik və bu istiqamətdə addımlar atmışıq. Azərbaycan və Ermənistan arasında sülh danışıqlarını qətiyyətlə dəstəkləməyə davam edirik".

Regional normallaşmanın ancaq dialoq yolu ilə əldə oluna biləcəyini deyən Sedat Önal bildirib ki, Türkiyə Ermənistanın BMT Təhlükəsizlik Şurası kimi beynəlxalq meydandan Laçın dəhlizi mövzusu daxil olmaqla siyasi motivli ittihamları bəyan etmək üçün istifadə cəhdlərindən narahatdır.

Sedat Önal deyib:"İlk növbədə, Azərbaycanın qanuni maraqlarını nəzərə almaq lazımdır. Həmçinin Azərbaycanın suverenlik hüququna hörmət etmək lazımdır. Azərbaycan artıq Laçın dəhlizi, Laçın yolunun sui-istifadəsindən, o cümlədən qanunsuz silahlı birləşmələrin, silah-sursatın, piyadaəleyhinə minaların daşınmasından narahatlığını bildirib. Lakin Azərbaycanın bu narahatlıqlar nəzərə alınmayıb".

# "Ermənistan tərəfi anlamalıdır ki..."

## Azərbaycan XİN Paşinyanın BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələri təhrif etməsinə münasibət bildirib

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 17-də hökumətin iclasında çıxışı zamanı BMT Təhlükəsizlik Şurasındakı (BMT TŞ) müzakirələri və üzv dövlətlər tərəfindən səslənmiş bəyanatları təhrif etməsinə münasibət bildirib.**

XİN Ermənistan baş nazirinin çıxışında müzakirə və bəyanatları təhrif etməsini Ermənistanın növbəti dəfə BMT TŞ-də düçar olduğu uğursuzluqla barışmaq istəmədiyi kimi şərh edib.

Bildirilir ki, bölgədə "humanitar vəziyyət" barədə hazırkı iddiaların aradan qaldırılması üçün Azərbaycan tərəfindən təklif olunmuş Ağdam-Xankəndi yolundan istifadənin əksər üzv dövlətlər tərəfindən dəstəklənməsinə və bu yoldan istifadə edilməsinə çağırışlara baxmayaraq, Ermənistan baş nazirinin bu yoldan istifadəni qəbul etməməsi qarşı tərəfin bölgədə vəziyyəti daha da gərginləşdirmək niyyətindən xəbər verir.



Məlumatda deyilir: "Bununla yanaşı, BMT TŞ üzvlərinin əksəriyyətinin vurğuladığı kimi, bölgədə sülh və sabitliyin bərqərar olması üçün həm sözdə, həm də əməldə suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət edilməsinin vacibliyinə baxmayaraq, Ermənistan tərəfinin "bölgədə humanitar vəziyyət", "blokada" kimi bəhanələri təkrarlayaraq destruktiv mövqe sərgiləməsi narahatlıq doğurur. Eyni zamanda, üzv dövlətlərin Azərbaycanın legitim təhlükəsizlik narahatlıqlarının nəzərə alınmasının zəruri olduğunu bildirmələri, bu narahatlıqların həlli istiqamətində səylərin birləşdirilməsinin vacib olduğunu bir daha xatırladır. Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan qanunvericiliyi çərçivəsində reinteqrasiya siyasətinə qarşı Ermənistanın müqavimət göstərməsi, baş nazirin guya ölkəmiz tərəfindən erməni sakinlərə qarşı atəş açdığı barədə iddialar səsləndirməsi və ölkəmizi "etnik təmizləmədə" təqsirləndirməsi Ermənistan rəhbərliyinin bölgədə reallıqları hələ də düzgün qiymətləndirmədiyini nümayiş etdirir. Ermənistan tərəfi anlamalıdır ki, bölgədə sülh və sabitliyin təminatının yolu əsassız iddialarla BMT Təhlükəsizlik Şurasında məsələ qaldırmaqdan yox, ərazi bütövlüyünün və suverenliyin təsdiq olunması və hörmət edilməsi əsasında qonşu ölkələrlə münasibətlərin qurulmasından və sülhün bərqərar olunması üçün Azərbaycanla birbaşa konstruktiv danışıqlardan keçir".

# Fars-molla rejimi iflasa məhkumdur

Azərbaycan sosial, iqtisadi cəhətdən dünyanın ən inkişaf etmiş dövlətləri sırasındadır. Bununla yanaşı, ölkəmizin sabitlik adası olması dost ölkələri sevindirib, düşmənləri isə pərişan edir. Dünyanın bir sıra ölkələrində vətəndaş müharibələri, dövlətlərarası münaqişələr cərəyan etdiyi halda, ölkəmiz bu kimi münaqişələrdən, qarşıdurmalardan uzaqdır. Bu vəziyyət bir sıra məkrli ölkələri, xüsusilə də Fransa, Ermənistan, fars-molla rejimini ciddi narahat edir. Bu səbəbdən də, Azərbaycana qarşı məkrli və terrorizm siyasəti aparırlar. Avqustun 16-da BMT Təhlükəsizlik Şurasına çıxarılan, lakin uğursuzluqla nəticələnən müzakirələrin bir tərəfdən Ermənistan vasitəsi ilə Fransa gündəliyə çıxarmışdısa, digər yandan fars-molla rejimi və Avropanın bəzi ikili siyasət yürüdən dövlətləri dolayısı ilə məsələyə dəstək nümayiş etdirmişdirlər.

Necə ola bilər ki, suveren, müstəqil Azərbaycanın icazəsi olmadan hansısa dövlət ölkəmizin ərazisinə yüklərin daşınmasını həyata keçirsin? İspaniya dövləti belə bir yüklərin Kataloniyaya və Barsoloniyaya daşınmasına icazə verə bilərmi? Yaxud Rusiyanın razılığı olmadan Dağıstan, Tatarıstana yüklərin daşınması mümkündürmü? Digər tərəfdən 30 ilə yaxın Azərbaycan torpaqları Ermənistanın işğalı altında inildədir. Niyə dünyanı idarə edən güc mərkəzləri Ermənistanın iqtisadi cəhətdən sanksiyalara məruz qalması üçün tədbirlər görmədi? Nədən Ermənistan cəzasız qaldı? Cavablar aydındır, həm də sadədir. Ermənistan xristian klubuna daxil olan dövlətlərdəndir. Səlibçilər yenidən peyda olmasa da, onun tör-töküntüləri dünyada sülhə və sabitliyə təhlükə yaratmaqda davam edirlər. Lakin nə planlaşdırmalarından asılı olmayaq, Azərbaycanın qanuni haqlarına müdaxilələr edə bilməyəcəklər. Azərbaycanın icazəsi və razılığı olmadan Laçın keçid məntəqəsindən humanitar yük adı altında, şounun həyata keçirilməsinə imkan verilməyəcək.



### Fars-molla rejimi erməni qardaşlarının yanındadır

Torpaqlarımız işğal altında olduğu vaxtlarda özünü müsəlman adlandıran, hər fürsətdə başbilənləri dini təəssübkeşlikdən danışan fars-molla rejimi "qırmız xətt", "regional maraqlarımız" kimi terminlərdən istifadə etmədi. Elə ki, Azərbaycan ordusu ərazilərimizi işğaldan azad etdi, mollalar danışmağa başladılar. Hətta fars-molla rejimin baş mollası Xomneyni "Zəngəzur bizim qırmızı xəttimizdir" deyə bildirdi. Bununla kifayətlənməyi açıq şəkildə Ermənistana iqtisadi, hərbi, siyasi dəstək göstərildi. Nəhayətdə isə, Azərbaycana təhdid siyasətinin gücləndirilməsi üçün terror aktları təşkil olundu. İngiltərə, Fransa və nəhayət, Tehranda səfirliyimizə edilən xain hücumları ölkəmizin dünyada artan nüfuzuna, gücündən və qüdrətindən narahat olmalarından irəli gəlir. Sübuta yetirildi ki, Londonda səfirliyimizə təşkil oluna hücumun arxasında fars-molla rejimin qüvvələri dayanıb. Londondakı səfirliyimizə hücumdan dərhal sonra molla-rejimi hücumda iştiraklarını ört-basdır etməyə cəhdlər göstərdilər. Lakin hücum edən terrorçuların fikirləri ilə Tehrandan gələn bəyanatlarla üst-üstə düşürdü. Fransa və İngiltərə ssenarisinin bir o qədər işə yaramadığını anlayan, terrorçu qruplar nəhayət, məkrli terror əməllərini Tehranda həyata keçirdilər. 2023-cü ilin yanvarın 27-də Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə edilən xain terror hücumu nəticəsində bir nəfər səfirlik əməkdaşı şəhid edildi, iki nəfər isə ağır yaralandı. Bu günə qədər də molla rejimi səfirliyə edilən xain hücuma düz-əməlli izahat verməyib, həm də dövlət səviyyəsində üzr istənilməyib. Bu yaxınlarda Qoşulmama Hərəkatının Bakıda keçirilən növbəti sammitində fars - molla rejiminin xarici işlər naziri səfirliyimiz edilən xain terror aktı ilə bağlı aparılan istintaq araşdımalarını Azərbaycan tərəfini məlumatlandıracaqlarını bildirmişdir. Ancaq verilən söz vədindən uzun vaxt keçməsinə baxmayaraq fars- molla rejimindən məsələ ilə bağlı səs - soraq yoxdur.



### Fars- molla rejimi dünya üçün təhlükələr yaradır

Hər zaman fars-molla rejimi terror aktlarını gizli şəkildə həyata keçirib. İnsan ölümlərini, dağıntılarını hiyləgərliklə həyata keçirib. Bu baxımdan, Tehranda Azərbaycan səfirliyinə edilən xain hücumun dövlət səviyyəsində təşkil edildiyini etiraf etməsi inandırıcı deyil. Əgər etiraf etsə, bu, molla rejimi prinsiplərinə zidd hərəkət etmiş olar. Molla rejimi bütün insanlıq və bəşəri dəyərlərdən uzaq olan bir rejimdir. Belə rejimlər sivil, demokratik dünya üçün təhlükə mənbəyidir. Belə təhlükəli terrorçu dövlətin zərərsizləşdirilməsi dünyanın rahat nəfəs alması demək olar. Molla rejimi öz xalqına, xüsusilə də, güneyli soydaşlarımıza qarşı amansızlıq göstərir. 22 yaşlı Məhsa Əmininin amansızlıqla öldürülməsindən sonra başlanmış etirazların yatırılmasında ən vəhşi, qəddar üsullardan istifadə edilir. Nəticədə, 1200 -ə yaxın insan öldürülüb ki, onların da yarıdan çoxu azərbaycanlılardır. 73 uşaq qətliamın qurbanı olub, 25 min insan gecələr evlərindən oğurlanaraq zindanlara atılıblar. Bu vəhşilik Xoy şəhərində baş verən zəlzələdən əziyyət çəkən azərbaycanlılara qarşı etinasız münasibətlə davam etməkdədir. Onlarla insan zəlzələnin qurbanı olub, minlərlə ailə evsiz-eşiksiz qalıb. Azərbaycan, Türkiyə və Pakistan, Xoy şəhərində zəlzələdən əziyyət çəkən insanlara humanitar yardım təklif etsələr də, əmmaməli mollalar yardımdan imtina etdilər. Molla rejimi Azərbaycan dövlətinin tarixi torpaqlarında yaşayan soydaşlarımızın basqı altında qalmasında maraqlıdır. Çünki qorxur ki, günün birində azadlıq mübarizəsi daha mütəşəkkil xarakter alar və xalq ayağa qalxaraq rejimi məhv edər. Sonrakı mərhələdə Cənubi Azərbaycan Cümhuriyyəti yaranar. Təbii ki, təhdidlərə, zülm və qətliamlara baxmayaq fars-molla rejiminin çökməsi uzaqda deyil. Bu isə onu deməyə əsas verir ki, yaxın vaxtlarda Təbrizdə, Tehranda və digər tarixi torpaqlarımızda Azərbaycan dövləti yaradılacaq, o yerlərdə üçrəngli Azərbaycan bayrağı dalğalanacaq.

**İ.ƏLİYEV**





# Ölümcül zərbə, tam fiasko

## Ermənistanın "humanitar fəlakət" kimi təqdim etməyə çalışdığı, əslində, təxribat xarakterli və məsuliyyətsiz siyasi kampaniyadır

***Ermənistanın Azərbaycana qarşı təbliğ etdiyi "blokada" və ya "humanitar böhran"ı yeni, həm də köhnə platformada - BMT Təhlükəsizlik Şurasında müzakirəyə çıxarmaq istəyi İrəvanın və bütünlükdə ermənilərin son çırpıntıları idi. Baxmayaraq ki, Ermənistan 30 ilə yaxın dövrdə işğalçı qüvvələrin Azərbaycan ərazisindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını birmənalı şəkildə tələb edən 1993-cü ilin müvafiq dörd qətnaməsinə və Təhlükəsizlik Şurasının sədrinin bir sıra bəyanatlarına açıq-aşkar məhəl qoymayıb, bu dəfə bir az da dərinə gedərək və arxasındakılara arxayın olub qələbə əldə edəcəyini düşünürdü. Əslində, Ermənistanın hərəkətləri əvvəlcədən planlaşdırılmış siyasi riyakarlığın təcəssümündən başqa bir şey deyildi və onun Təhlükəsizlik Şurasına müraciəti aylar ərzində beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq üçün apardığı kampaniyanın tərkib hissəsidir.***




### "Xankəndi", "Azərbaycanın ərazi bütövlüyü" ifadələri...

Ermənistan BMT Təhlükəsizlik Şurasının son iclasında ölkəmizi etnik təmizləmə siyasətində, soyqırımıda, həmçinin guya Qarabağda yaşayan erməniləri "blokada" şəraitində saxlamaqda günahlandırmaq, bu əsassız ittihamlar əsasında Azərbaycana qarşı hüquqi zəmin yaratmaq istəyirdi. Onlar bununla Qarabağdakı ermənilərin Azərbaycandan ayrılması prinsipini həyata keçirməyə ümid edirdilər. Bu, olduqca təhlükəli bir addım idi. Amma Azərbaycan asan olmasa da, Ermənistan və Fransa kimi ermənipərəst qüvvələr qarşısında böyük qələbə qazandı. Maraqlı məqam ondan ibarətdir ki, Təhlükəsizlik Şurasının iclasında 15 ölkənin nümayəndələrinin çıxışı dünyanın koalisiyalardan ibarət olduğunu bir daha sübut etdi. ABŞ, Fransa, Rusiya, Çin planetin bir çox ölkəsinə təsir gücünə malikdir. BMT TŞ-də çıxışlara diqqət yetirsək, Rusiya və Fransanın arqumentləri bəzi digər dövlətlər tərəfindən də səsləndirildi. Ermənistan üçün isə gözlənilməz məqam Braziliyanın və Albaniyanın Azərbaycanı dəstəkləməsi oldu. Tirananın Kosovo məsələsinə görə Bakı və İrəvan arasında bitərəf qalacağını düşünən Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan rəsmi Bakının Balkanlarla siyasi, iqtisadi və strateji müttəfiqliyini nəzərə almamışdı. Həm Braziliyanın, həm də Albaniyanın "Xankəndi", "Azərbaycanın ərazi bütövlüyü" ifadələrini işlətməsi sözsüz ki, təqdirəlayiq idi.



### Ümid böyük və kiçik "bacılara" qaldı

BMT Təhlükəsizlik Şurasında ən neytral mövqeni Çin sərgilədi, Britaniya da qismən orta mövqe tutdu. Rəsmi Parisin BMT-dəki nümayəndəsinin isə diplomatik etikadan kənara çıxaraq toxunduğu məsələlər, əlbəttə ki, erməniprəst mövqenin göstəricisi idi. Lakin Fransa və Maltadan başqa Ermənistanın mövqeyini tam dəstəkləyən üçüncü belə çıxış olmadı. Danışıqlar prosesində tərəflərdən olan Rusiyanın təmsilçisinin çıxışına gəlincə isə o, Türkiyə, Albaniya və Braziliya nümayəndələri ilə eyni siyahıda yer alaraq Ermənistanı faktiki olaraq neytrallaşdırdı. Onun "Qarabağdakı ermənilərin hüquq və təhlükəsizliyi ikitərəfli dialoqda Azərbaycanın qanunvericiliyinə uyğun aparılmalıdır" ifadəsi təqdirəlayiq idi. Çıxışlarda kimin insan hüquqları, kimin isə ərazi bütövlüyü prinsipinə vurğu edəcəyi maraqla gözlənilirdi. Braziliya, Albaniya, Rusiya və Türkiyə nümayəndələrinin insan hüquqları məsələsinə məhz ərazi bütövlüyü prizmasından yanaşmalarını yüksək qiymətləndirmək olar. O ki qaldı, ABŞ nümayəndəsinin nitqinə gözlənildiyi kimi, həmin çıxış Laçın yolunun açılması, amma, eyni zamanda, alternativ yollarla bağlı da kompromisin üzərində qurulmuşdu. O, ərazi bütövlüyü, suverenlik kimi çox vacib prinsiplərə toxunmadı. Beləliklə, Ermənistanın və Fransanın BMT Təhlükəsizlik Şurasına ümidləri boşa çıxdı, separatçılar çox ciddi zərbə aldılar. Yəqin ki, yaxın vaxtlarda Rusiyanın vasitəçiliyi ilə son təkliflərin müzakirəsi də baş tutacaq. Sonda Ararat Mirzoyanın və Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyevin çıxışlarının müqayisəsini apararaq, Ermənistan XİN rəhbərinin uğursuzluğunu xüsusi vurğulamaq yerinə düşər.

### Ermənistanın yaramaz ssenarisi

Ermənistanın niyyətlərinin boşa çıxmasını və hansı zərbə aldığını bilməkdən ötrü buna qədər yürütdüyü siyasətə qısa bir nəzər salmaq gərəkdir. Ermənistan hiyləgərliklə "humanitar fəlakət" şousu yaradaraq dünya ictimiyyətinin diqqətini cəlb etməyə çalışdı. Niyyət ondan ibarət idi ki, bu teatrın, "humanitar fəlakət" şousunun arxasınca məsələni beynəlxalq təşkilatlara çıxartsın, ictimai rəyi cəlb eləsin, bəlli qərarların qəbul edilməsinə nail olsun. Sonra isə bundan istifadə edərək Azərbaycanla sülh müqaviləsinə gedən yola əngəllər törətsin, sərhədlərin delimitasiyası və demarkasiyasını həyata keçirməsin, sülh sazişi imzalamasın, havadarlarının köməyi ilə hansısa təxribatlara getsin. Ermənistanın ssenarisi, siyasətinin əsasında bu dayanırdı və məqsədləri də bunlar idi. Amma Təhlükəsizlik Şurasında Ermənistan öz istəklərinə çata bilmədi. Bu niyyətlərə çata bilməməyin bir sıra səbəbləri var. Hər şeydən əvvəl, dünya həqiqətlərdən xəbərdardır. Bu həqiqətlər təsadüfən həmin dövlətlərə çatmayıb. Azərbaycan həqiqətlərini dünyaya çatdıran Prezident İlham Əliyevin rəhbərliyi altında dəqiq müəyyənləşdirilmiş xarici siyasətimizi həyata keçirən diplomatiyamızdır. Azərbaycanın uğurunun təməlində, ilk növbədə, haqqa və ədalətə əsaslanması dayanır. Azərbaycanın işi haqq işidir və ədalətlidir. Özünə hörmət edən heç bir dövlət sərhədindən qanunsuz yüklərin ərazisinə daşınmasına icazə verə bilməz. Hər hansı bir "yardım" adı altında silah-sursat, terrorçunun daşınmasına imkan verən və ya icazə verən bir dövlətə heç bir zaman digər ölkələr hörmətlə yanaşmazlar. Azərbaycan özünə hörmət edən, haqqı, ədaləti qoruyan bir dövlətdir. İkincisi, Azərbaycanın işi, mövqeyi BMT Nizamnaməsinə əsaslanır. Qarabağı bütün dünya Azərbaycanın ərazisi olaraq qəbul edir.

### Ağdamdan Xankəndinə...

Ermənistan Qarabağda yaşayan bir neçə min ermənini özünün girovuna çevirməməlidir. Ağdamla Xankəndi arasındakı yol daha qısadır, daha əlverişlidir və kimsə Azərbaycanın hüdudları daxilində necə davranmağı Azərbaycan dövlətinə hökm edə bilməz. Hökm edən yeganə qüvvə Azərbaycan dövlətidir. Azərbaycan birmənalı olaraq diplomatik müstəvidə də haqlı olduğunu sübuta yetirir. Belə ki, ölkəmizin BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyevin qurumun Təhlükəsizlik Şurasının iclasındakı çıxışı çox konseptual idi. Bütün istiqamətləri ilə erməni yalanlarını ortaya qoyan səfir Yaşar Əliyev, Qarabağda hər hansı bir humanitar fəlakətin olmadığını, ermənilərin Azərbaycana reinteqrasiyasının önündə ən böyük əngəlin elə məhz bu separatizm və oradakı qeyri-qanuni erməni silahlı dəstələri, həmçinin onların rəhbərləri olduğunu faktlarla göstərdi.

*Ardı Səh. 6*

# Ölümcül zərbə, tam fiasko

## Ermənistanın "humanitar fəlakət" kimi təqdim etməyə çalışdığı, əslində, təxribat xarakterli və məsuliyyətsiz siyasi kampaniyadır

Əvvəli Səh. 5



Bununla yanaşı, Ermənistanın sülhə aparan siyasət izləmədiyini, növbəti dəfə beynəlxalq ictimaiyyəti aldatmağa çalışdığını və manipulyasiya etdiyini aydın şəkildə bütün ictimaiyyətə çatdırdı. Bu, Ermənistan dövlətçiliyi üçün böyük bir fiaskodur. Beynəlxalq danışıqlarda guya sülh tərəfdarı olduğunu ifadə edən Ermənistanın baş naziri Nikol Paşinyanın əslində səmimi olmayan mövqeyi də ortaya çıxmış olur. Çünki Ermənistan hökuməti bir tərəfdən Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır, digər tərəfdən də bizim daxili işlərimizə müdaxilə etməyə çalışır. Baxmayaraq ki, heç bir halda Ermənistan dövləti Azərbaycanla mübarizə apara biləcək gücə və imkana sahib deyil. Bu da bir tərəfdən Ermənistan dövlətinin əslində nə qədər biabırçı bir konsepsiyaya sahib olduğunu, reallıqları düzgün qiymətləndirmədiyini ortaya qoyur. Bundan sonra artıq Ermənistan üçün halqa getdikcə daralır.

### Paşinyanın cığallığı

"Ermənistanın baş naziri Nikol Paşinyanın 17 avqust tarixində hökumətin iclasında çıxışı zamanı BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələri və üzv dövlətlər tərəfindən səslənmiş bəyanatları təhrif etməsi bir daha göstərir ki, Ermənistan növbəti dəfə BMT TŞ-də düçar olduğu uğursuzluqla barışmaq istəmir. Bölgədə "humanitar vəziyyət" barədə hal-hazırkı iddiaların aradan qaldırılması üçün Azərbaycan tərəfindən təklif olunmuş "Ağdam-Xankəndi" yolundan istifadənin əksər üzv dövlətlər tərəfindən dəstəklənməsinə və bu yoldan istifadə edilməsinə çağırışlara baxmayaraq, Ermənistan baş nazirinin bu yoldan istifadəni qəbul etməməsi Ermənistan tərəfinin bölgədə vəziyyəti daha da gərginləşdirmək niyyətindən xəbər verir.



Regionda sülhə və əməkdaşlığa meyilli siyasət yürüdən Azərbaycanın beynəlxalq əhəmiyyətinin gündən-günə artırır. Azərbaycan bundan sonra da bütün müstəvilərdə üstünlüyünü, gücünü, haqlılığını ortaya qoymağa davam edəcək. Bu, Azərbaycanın növbəti qələbəsi kimi qeyd edilə bilər. Digər ölkələrdə bu reallıqları nəzərə alaraq artıq heç bir şeyi dəyişdirə bilməyəcəklərini qəbul etməlidirlər və ona görə strateji önəmi yüksələn Azərbaycanla əməkdaşlıq yolunu seçməlidirlər.

Azərbaycan beynəlxalq hüququn, BMT Nizamnaməsinin verdiyi imkanlardan istifadə edərək 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə işğal altında olan torpaqlarını azad etdi. Bütün bunlar da onu göstərir ki, ədalət, beynəlxalq hüquq güclə təmin olunur. Bu gün regionda Azərbaycan siyasi, iqtisadi və hərbi gücə malikdir. Azərbaycan dövləti və xalqı bütün dünyaya sübut etdi ki, ərazisində separatizmin davam etməsinə imkan verməyəcək.

Ərazimizdə separatizmin davam etməsində maraqlı olan Fransa və İran kimi dövlətlərin dəstəyi ilə ermənilər yenidən təşkilatlanaraq, münaqişəni alovlandırmağa nail olmaq istəyirlər. Amma anlamırlar ki, daha hay-küy salmaqla reallığı dəyişə, diplomatiyanı və hərbi gücü üstələyə bilməzlər. Laçın dövlət sərhədindən buraxılış məntəqəsi qurmaq, orada keçid rejimi müəyyən etmək və tənzimləmək Azərbaycanın müstəsna hüququdur. Buna görə də dövlətimiz kimdənsə icazə almayaraq tədbirlər görməyə davam edir. Belə hallar ölkəmizin "sərhəd keçid rejimini" tənzimləyən daxili qanunvericiliyi ilə təmin edilir. Ermənistanın BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxardığı "məsələyə" görə dəstək ala bilməməsi Azərbaycan dövlətinin, diplomatiyasının və hərbi gücünün nəticəsidir. Azərbaycan hansısa dövlətin və beynəlxalq təşkilatın bəyanatından və qərarından asılı olmayaraq öz ərazisində separatizmin kökün kəsmək, ərazi bütövlüyünü təmin etmək gücündədir və bu istiqamətdə qarşısına qoyduğu məqsədə çatacaq.





Bölgədə sülh və sabitliyin bərqərar olması üçün həm sözdə, həm də əməldə suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət edilməsinin vacibliyinə baxmayaraq, Ermənistan tərəfinin bəhanələri təkrarlayaraq destruktiv mövqe sərgiləməsi narahatlıq doğurur.

### Ekspert nə deyir?

BMT TŞ-nin Ermənistanın tələbi ilə keçirilən iclası haqqında danışan siyasi şərhçi Turab Rzayev deyib ki, BMT TŞ-nin tərkibində Qoşulmama Hərəkatı və üçüncü dünya ölkələrinin üzvləri az olduğu üçün Azərbaycanın kifayət qədər dəstək ala bilməyəcəyi barədə gözləntilər var idi. 44 günlük müharibə dövründə BMT TŞ-nin yeddi qeyri-daimi üzvü eyni zamanda Qoşulmama Hərəkatının üzvü idi və onlar iki dəfə səssiz çoxluqla ölkəmiz əleyhinə qərar qəbul edilməsinə əngəl oldu. İndi isə bu tərkib kifayət qədər dəyişib. Azərbaycan dövləti də nəyin bahasına olursa-olsun, suverenliyimizə, ərazi bütövlüyümüzə və müstəqilliyimizə qarşı qərar qəbul ediləcəyi təqdirdə qoyulan şərtləri yerinə yetirməməyi gözə almışdı. Çünki bu artıq son nöqtədir və heç bir halda geriyə də addım atmaq olmaz. Müzakirələr zamanı dövlətlərin mövqeləri əvvəlcədən təxmin edilən kimi oldu.

Fransa, Malta açıq şəkildə Ermənistanı müdafiə etdi, "soyqırım"la bağlı iddialar səsləndirdilər. İclasa ABŞ sədrlik edirdi, ancaq nə qədər neytral kimi görünməyə çalışsalar da, son dövrlərdə Bayden administrasiyasında güclənən liberal sol kəsimlərin ermənilərə duyduğu simpatiya sərgilədikləri mövqedə özünü büruzə verdi. Çünki açıq şəkildə Laçın yolu və "blokada" məsələsində bu daha çox hiss olundu. Eyni zamanda Azərbaycanın "dq" ilə danışığa çağırılması bizim üçün gözlənilməz oldu. Çünki Vaşinqton prosesi zamanı Entoni Blinken Ermənistanı Azərbaycanın ərazi bütövlüyünü tanımağa çağırıb. Braziliya ölkəmizin mövqeyini müdafiə etdi, hətta Xankəndi adını işlətdikləri üçün ermənilərin tənqid və təhqirlərinə məruz qaldılar. Albaniyaya xüsusi təşəkkür düşür. Bu ölkə Frankofoniyada olduğu kimi açıq və qəti şəkildə ölkəmizi müdafiə etdi. Eyni zamanda Rusiyanın da bu məsələdə Qərbin müdaxiləsinin və məsələnin BMT TŞ-də müzakirəsinin əleyhinə olduğu dolayı yolla özünü göstərdi.

Bizim üçün əsas gözlənilməz olan məqamlardan biri Birləşmiş Ərəb Əmirliklərinin mövqeyi idi. Çünki Azərbaycanla qarşılıqlı iqtisadi və siyasi əlaqələri olan BƏƏ-nin 44 günlük müharibə dövründəki kimi dövlətimizin maraqlarına xəyanət etməsi nə İslam həmrəyliyinə, nə də ki əlaqələrin ruhuna yaraşmadı. Burada uzun illərdir oturuşmuş Türkiyə düşmənçiliyinin və ya Fransa və digər ölkələrin təzyiqlər göstərməsinin BƏƏ-nin belə mövqe sərgiləməsinə təsiri olması mümkündür. Ancaq bütün hallarda iclasın gedişatı Ermənistanın gözlədiyindən qat-qat aşağı oldu. Onlar daha təsirli nəticənin olacağını düşünürlər.

Ancaq sadaladığımız faktorlar, ABŞ-ın müəyyən mənada neytrallığı qoruması, AB nümayəndəsinin kifayət qədər balanslı çıxışı və Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi yoluna istinad etməsi, ölkəmizin tərəfdaşlarının məsələyə müdaxiləsi Ermənistanın gözlədiyi nəticənin ortaya çıxmasının qarşısını aldı. Son nəticədə bu iclas rəsmi İrəvanın xarici siyasətinin fiyaskosu oldu.

Beləliklə, Azərbaycan 44 günlük müharibədə əldə etdiyi qələbələr seriyasını masada da davam etdirir. Çünki, Azərbaycan haqlı tərəfdir, Qarabağ da, Şərqi Zəngəzur da suveren ərazilərimizdir. Kimsənin bizim daxili işlərimizə qarışması qəbuledilməzdir. Ermənistan kimi ölkələr işğalçı siyasətlərindən əl çəkməsələr bundan sonra da layiq olduqları cavabı alacaqlar.

***V.VƏLİYEV***

***P.S. Məqalədə istinadlar var***

# Dmitri Solonnikov: Qərb erməniləri qızışdırır və bölgədə yeni qarşıdurma yaratmağa çalışır

## Rusiyalı politoloq: Dünyaya Qarabağdan uydurma şəkillər göstərirlər ki, humanitar faciə kimi qələmə versinlər. Bu ssenarini amerikalı siyasi texnoloqlar işləyir



Son günlər Azərbaycan və Ermənistan münasibətlərində eyni vaxtda bir neçə zonada gərginlik artmaqdadır. Ermənistan tərəfindən sərhədyanı ərazilərin atəşə tutulması dayandırılmır. Azərbaycanın Müdafiə Nazirliyi və Xarici İşlər Nazirliyi "Azərbaycan Respublikası ərazisində qanunsuz erməni silahlı birləşmələrinin fəaliyyəti" ilə bağlı məlumat yayıb. "Ermənistan silahlı qüvvələrinin qanunsuz birləşmələri və qalıqları tərəfindən hərbi mövqelərin şəxsi heyət, sursatla möhkəmləndirilməsi, həmçinin yeni müdafiə xətlərinin, səngərlərin, uzunmüddətli istehkamların hazırlanması və ərazidə minaların quraşdırılması aparılır. Bundan əlavə, qanunsuz silahlı birləşmələrin üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunun bir sıra yaşayış məntəqələrində müxtəlif təyinatlı hərbi texnikanın, o cümlədən HHM sistemləri və elektron müharibənin aparılması üçün qurğuların yerləşdirilməsi, mülki əhalinin kütləvi şəkildə silahlanması faktları aşkar edilib. Atış mövqelərinin yaşayış binalarının yaxınlığında yerləşdirilməsi planlaşdırılır",- deyə Azərbaycan Müdafiə Nazirliyinin məlumatında bildirilir.

Kim və nə üçün Qarabağ bölgəsindəki vəziyyəti yenidən alovlandırmağa çalışır? Rusiyalı politoloq, Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov "Moskva-Baku" portalına müsahibəsində bu suallara aydınlıq gətirib. Müsahibəni oxucularımıza təqdim edirik.

***-Dmitri Vladimiroviç, Azərbaycan və Ermənistan arasında artan gərginliyin növbəti dalğasının arxasında kim dayanır?***

- Şübhəsiz ki, Qərb. Postsovet məkanında ikinci müharibə cəbhəsinin açılması vəzifəsini hələ ki reallaşdıra bilməyiblər. Qafqaz onların bu məqsədi üçün yaxşı bir platforma kimi görünür. Bu tapşırığın həyata keçirilməsi üçün əlverişli zəmin formalaşmaqda davam edir, o cümlədən Ermənistan üçün xaricdən fəal informasiya dəs-



təyi yaradılır.

Qarabağ ətrafında vəziyyət informasiya müstəvisində bir növ qlobal böhran kimi süni şəkildə şişirdilir. İnandırıcılıq üçün müvafiq şəkillər göstərirlər ki, tamaşaçılar bunu görüb inansınlar. Ssenari həyata keçirilir, təbii ki, bu planı Paşinyanın kabineti yox, amerikalı siyasi texnoloqlar işləyir. Necə ki, Ermənistanda onun hakimiyyətə gətirilməsi ssenarisini həyata keçirib, əli sarğılı, xaki geyimli döyüşçü, müharibə veteranı obrazını yaradıblar. Necə ki, Qarabağla bağlı vəziyyət ətrafında "şəkillər" yaradılır, sonra isə bütün dünyada təkrarlanır.

Bütün bunlar vəziyyəti hərbi əməliyyatların yeni mərhələsinə çatdırmaq, Qarabağ ermənilərinin qondarma "müdafiəsini" qanuniləşdirmək məqsədilə həyata keçirilir.

Rusiyanın əvvəl Ağdam-Xankəndi yolunu, sonra Laçın yolunu və Zəngəzur dəhlizini açmaq təklifləri Ermənistan hakimiyyəti tərəfindən qəbul edilmir. Çünki İrəvanın qarşısında Rusiya Federasiyasından qopmaq vəzifəsi qoyulub.

Aİ missiyası Azərbaycan Müdafiə Nazirliyinin Qarabağda hərbi texnikanın toplanması ilə bağlı dünənki hesabatından sonra heç bir cəmləşmə görmədiyini bildirib. Aİ missiyası Ermənistan üzərində oynayır. Lap başdan onlar üçün belə bir vəzifə qoyulmuşdu.

Şübhəsiz ki, Ermənistanın Qərbin ssenarisi üzrə Rusiya sülhməramlılarını və Azərbaycanı bir-birinə sıxışdırmaq cəhdləri davam edəcək. Biz bunu zaman-zaman görürük. Onları hansısa hərəkətlərə cəlb etməyə çalışırlar.

Ermənistan kuratorlarının vəzifəsi erməni əhalisi üçün əlverişli həyat yaratmaq deyil, gərginlik ocağı yaratmaqdır. Sonra da NATO və ABŞ hərbçilərini bu ocağa dəvət etmək və Qarabağ ətrafında yeni münaqişə yaratmaq.

KTMT yeni münaqişənin alovlandığı təqdirdə Ermənistana kömək etməyəcək. Bu, Paşinyana bir daha bəyan etməyə imkan verəcək: Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı respublikanı dəstəkləməyib və Ermənistanın bu strukturda olmasının mənası yoxdur. Ona görə də Ermənistan NATO-ya üzvlük üçün müraciət edəcək. Plan belədir.

Paşinyan Ermənistanda hakimiyyətə gələndə ona verilən tapşırığı həyata keçirir - Rusiyadan uzaqlaşma. Kim pul ödəyirsə (buradakı halda amerikalılar) musiqini də o sifariş verir.

Qərb qüvvələri Ermənistan hakimiyyəti və separatçılarla paralel işləyir. Təbii ki, Ermənistan hakimiyyətinin özü də Qərbin məqsədlərinə çatması üçün separatçılarla əməkdaşlıq edir. Bəli, separatçılar zaman-zaman Ermənistan hakimiyyətini açıq şəkildə tənqid edirlər, lakin bu heç nə demək deyil- biri digərinə qarışmır.

Eskalasiyanın təhrik edilməsi ənənəvi ssenari üzrə gedir: Ermənistan Silahlı Qüvvələri və ya separatçılar Azərbaycan ərazisini atəşə tutur. Sonra Bakı təxribatlara cavab verəndə Ermənistan tərəfi bundan istifadə edərək şikayət edir və ya günahın Azərbaycanda olduğunu iddia edir. Növbəti gərginlikdən sonra Ermənistan Müdafiə Nazirliyi Azərbaycanın Ermənistan ərazisində



Aİ missiyasını guya atəşə tutduğunu elan etdi. Nəticədə missiya bunu təkzib etdi.

Bütün bunları tənzimləyə bilərsiniz - bu problem deyil. Və əgər xarici qüvvələrdən biri öz qarşısına eskalasiyaya təhrik etmək vəzifəsini qoyubsa, bu ssenarinin həyata keçirilməsinə çalışacaq.

Azərbaycan hadisələrin inkişafının hərbi ssenarisinin qarşısını almaq üçün əlindən gələni edəcək. Amma o da göz qabağındadır ki, Ermənistan və separatçılar təxribat törədərsə, Azərbaycan cavab verməli olacaq, öz ərazisini müdafiə etməyə məcbur olacaq.

- Hazırda Qarabağın Bakının nəzarətində olmayan hissəsində döyüş mövqeləri quran qeyri-qanuni erməni silahlı birləşmələridir. Amma axı Rusiya Federasiyası, Azərbaycan və Ermənistan rəhbərlərinin İkinci Qarabağ müharibəsinin başa çatması ilə əldə etdikləri razılaşmalara görə, onlar bu ərazidən çıxarılmalı idilər...

- Doğrudan da, 9-10 noyabr 2020-ci il tarixlərində üçtərəfli Bəyannamənin imzalanması ilə Qarabağdakı qeyri-qanuni silahlı erməni birləşmələri öz mövcudluğuna son qoymalı idi. Təəssüf ki, bu baş vermədi və biz birləşmələrin regionda təhlükəsizliyi və sabitliyi pozan ciddi mənbə kimi necə davam etdiyini görürük. Separatçılar Qarabağın Bakının nəzarətində olmayan hissəsində hərbi fəaliyyətlə məşğuldurlar, xatırladığımız kimi vaxtaşırı təxribat hücumları təşkil edir, Azərbaycan ərazilərinin gizli şəkildə minalanması ilə məşğul olurlar.

İrəvan dəfələrlə bəyan edib: Ermənistan Qarabağın Azərbaycan ərazisi olduğunu tanıyıb. Buradan Azərbaycan Respublikasının Qarabağ bölgəsində birləşmələrin mövcudluğunun qanuniliyi ilə bağlı çıxış edirikbunlar silahlılardır.

***- Bu gün Qarabağda və sərhəddə artan gərginlikdə erməni müxalifətinin rolu nədən ibarətdir?***

- Bu vəziyyətdə müxalifətin ciddi rol oynadığını düşünmürəm. Baxmayaraq ki, kimdənsə asılı olaraq bu gün müxalifət sayılır. Xaricdəki erməni diasporu çox fəal çalışır ki, Qarabağ Ermənistanda qalsın. Və müxtəlif ölkələrdə bu cür maraqlara malik siyasi lobbiçilər bunun belə olmasını təmin etməyə çalışırlar. Amma heç nəyə nail olmayacaqlar.

İkinci Qarabağ Müharibəsindən sonra erməni müxalifəti heç vaxt vahid qərar qəbuletmə mərkəzi yarada, birləşib öz gündəliyini həyata keçirə bilmədi, çünki onun gündəliyi digər məsələlərlə yanaşı, bu gün Ermənistanda heç də həmişə əhalinin maraqlarına cavab vermirdi.

Bunlar çirkli sularda balıq tutmağa çalışan və məqsədlərinə çatmağa çalışan insanlardır. Təbii ki, müxalifət Ermənistanın baş nazirini devirmək istərdi, lakin İkinci Qarabağ müharibəsindən sonra da buna nail ola bilmədi. Ona görə də Ermənistanın növbəti məğlubiyyətini Paşinyanın üzərinə yıxmaq üçün münasib anı gözləməkdə davam edirlər.

***Tərcümə - Elçin Bayramlı***

**Öz şantaj kampaniyası üçün Ermənistanın BMT Təhlükəsizlik Şurasından növbəti dəfə istifadə etmək niyyətinin baş tutmaması, bunun qarşısının alınması Azərbaycanın daha bir uğuru, işğalçı ölkə diplomatiyasının isə fiaskosudur. Daha bir uğursuzluğa düçar olan erməni şousundan sonra erməni cəmiyyəti əmin olmalıdır ki, manipulyasiyalarla, çirkin niyyətli hiylәgәrliklәrlә nəyə isə nail ola bilməzlər və Qafqazda dayanıqlı sülhün əldə edilməsinin yeganə yolu ölkələrin ərazi bütövlüyü və suverenliyinin qarşılıqlı olaraq tanınmasıdır. BMT Təhlükəsizlik Şurasının son iclası bir daha təsdiq etdi ki, Azərbaycanın Vətən müharibəsindəki şanlı zəfərindən sonra regionda yeni düzən formalaşıb və bu düzəni pozmaq, praktik olaraq, mümkünsüzdür.**




# Erməni diplomatiyasının üzləşdiyi növbəti

# FİASKO!

Bir halda ki, Ağdam-Xankəndi yolu bütün növ əmtəələrin daşınmasına hazırdır, o zaman ermənilərin bu yoldan imtina etməsi sual doğurmaya bilməz. Uzunluğu 26 km olan Ağdam-Xankəndi yolu müasir standartlara uyğun qurulmaqla yanaşı, həm də uzunluğu 60 km olan Laçın-Xankəndi yolundan qısadır da. Əgər Ağdam-Xankəndi yolu Qarabağ iqtisadi rayonunda daxili şəbəkədirsə və vacib nəqliyyat xətti hesab olunursa, deməli, bu yoldan istifadə bütövlükdə həmin iqtisadi rayonun inkişafına töhfə baxımdan da vacibdir və iqtisadi inkişaf üçün zəmin yaratdığından bu yolun intensiv istifadəsi olduqca əhəmiyyətlidir. Bölgədə Xankəndiyə ən qısa məsafə hesab olunan Ağdam-Xankəndi yolu həm də iqtisadi baxımdan əhəmiyyətli olduğu halda ermənilərin bu yoldan imtina etmələrinə, Laçın yolundan istifadə etmək üçün hər yola əl atmalarına nə ad qoymaq olar? Məqsəd nədir ki, qısa və iqtisadi baxımdan sərfəli olan yol deyil, daha uzun və Qarabağ iqtisadi rayonunu Şərqi Zəngəzurla birləşdirən Laçın yolu üçün dəridən-qabıqdan çıxırlar? Bu suallardan aydın olur ki, separatçı ermənilərin ərazilərimizə silah-sursat, hərbi texnika, qanunsuz silahlı dəstə daşımaq kimi, çirkin niyyətləri var və arzuladıqları Laçın yolu bu niyyətlərinin gerçəkləşməsi üçün onlara daha münasib hesab olunur. Bunu biz də başa düşürük, BMT Təhlükəsizlik Şurası da, hətta bütövlükdə dünya ictimaiyyəti də. Elə isə, ermənilərə öz istədikləri kimi rahat şəkildə ağıllarına gələni etmək üçün buna icazə vermək doğru sayılarmı? Əlbəttə ki, sayılmaz və elə sözügedən beynəlxalq qurum da eyni mövedə olduğunu açıq şəkildə ifadə etdi və bu da özünü son günkür dağa-daşa vuran erməni diplomatiyası üçün fiasko sayılır.

İndi artıq el içində, "nə oldu, Paşinyan?" əvəzinə, "nə oldu, ay ora-bura şikayət edərək müraciət edənlər?", deyə, mötəbər beynəlxalq təşkilatı öz çirkin məqsədləri üçün alətə çevirmək istəyənlərin ələ salınmalarının zamanı çatdı. Görəsən, bundan sonra da hansısa təşkilata müraciət edə biləcəklərmi? Axı üz tutmadıqları yer qalmamışdı və BMT Təhlükəsizlik Şurasına müraciət, erməni diplomatiyasının ən son ümidi idi. İşğalçı ölkənin hakimiyyəti məhz Laçın yolu ilə bağlı ABŞ, Fransa, Rusiya və daha hansı ölkələrə üz tutmamışdı? Kimdən yardım, kömək diləməmişdilər? Yardımı, köməyi lap elə dilənmişdilər də. Gah Vaşinqtona, gah Parisə, gah da Moskvaya əl açan ermənilər hər dəfə əlləri boş qayıdanda bilməli idilər ki, Avropadan da, BMT Təhlükəsizlik Şurasından da istədiklərini ala bilməyəcəklər. Bilməli idilər ki, bu beynəlxalq qurum onlar üçün özünü oyuncağa çevirən deyil və başları daşa dəyəndən sonra da olsa buna əmin oldular. Məhz elə indi, "nə oldu", deyə sual etmənin də vaxtı çatdı.

Bilirik ki, BMT Təhlükəsizlik Şurasına müraciət nə təkcə Xankəndində, nə də təkcə İrəvanda oturan erməni "başbilənlərinin" başının məhsulu deyildi. Bu, ümumilikdə erməni cəmiyyətinin, bəlkə də, "evrika" deyib bağırdığı dırnaqarası "kəşfi" hesab olunurdu desək, yerinə düşər. Təkcə xankəndindəki, yaxud da İrəvandakılar deyil, dünya ermənilər belə gözlərini dikmişdilər BMT Təhlükəsizlik Şurasının növbədənkənar iclasına və arzu edirdilər, bəlkə hələ ümid də edirdilər ki, Laçın yoluna onlar üçün gül düzüləcək və onlar da arxayınlıqla öz çirkin niyyətləri üçün bu yoldan istifadə edəcəklər, Azərbaycanın Qarabağ iqtisadi rayonuna silah-sursat, hərbi ləvazimatlar, qanunsuz silahlılar daşıyacaqlar, partlayıcı vasitələri, minaları da bir-birinin ardınca gətirib basdırmaqda davam edəcəklər. Amma gördülər ki, onların bildiklərini onlardan da yaxşı bilənlər var və belə mənfur əməllərə, çirkin niyyətlərə rəvac vermək, yolu açıb onlar üçün münbit şərait yaratmaq elə özü də yolverilməzdir. Məhz bu "yolverilməzlik" Ermənistanın, erməni diasporunun və lobbisinin, ermənipərəst dairələrin səylərini nəticəsiz qoydu və bu da, onlar üçün, erməni cəmiyyəti, eləcə də erməni diplomatiyası üçün elə fiasko sayılır. Özü də bu, növbəti fiaskodur, çünki bundan əvvəl də, daha dəqiq desək, keçən ilin dekabrında da BMT Təhlükəsizlik Şurası ilə bağlı arzuları ürəklərində qalmışdı.

Həm döyüş meydanında, cəbhə xəttində, həm müharibənin dayandırılması üçün razılaşma imzalayarkən, həm diplomatik müstəvidə bir-birinin ardınca məğlubiyyətə imza atan işğalçı ölkə hakimiyyəti bu dəfə də suyu süzülmüş, burnunu sallamış halda İrəvana qayıtmalı olur. Yenə də məğlub durumda, yenə də uduzmuş halda erməni diplomatların öz vətənlərinə qayıtmaları onlara heç olmasa, bu dəfə dərs olmalıdır. Heç olmasa bu dəfə dərk etməlidirlər ki, belə məğlubiyyətlərin ardınca ölkələrinə dönmələrinə üzlərinin olmadığı, növbəri dəfə öz ölkələrinə buraxılmayacaqlarına bir işarədir. İndi erməni xalqı yenə də, hansısa başıpozuq, sərsəm siyasətçilərin axmaq düşüncələrinin, ideyalarının, təfəkkürlərinin mənasız olduğunun və onları məğlubiyyətə sürüklədiyinin şahidi oldu. Onlara elə həmin o erməni xalqı tərəfindən bir xəbərdarlıq edilməsinin də zamanıdır və çox güman ki, belə bir fiasko onlara uzaq başı sonuncu dəfə bağışlana bilər. Bu məğlubiyyətdən sonra ölkələrinə qayıtmağa üzlərində üz tapanları, təmsil etdikləri erməni xalqı qova da bilər və xalqı kütlə yerinə qoyaraq aldadan, bir məğlubiyyətdən digərinə sürükləyənlərə qarşı həmin xalqın belə bir addım atmaq üçün əsası da var.

Azərbaycanın ərazi bütövlüyünə hamı tərəfindən hörmət ifadə edildiyinin ermənilər bir daha şahidi oldular. Eləcə də hamı Ağdam yolunun açılmasını vacib saydı və haylar gec də olsa dərk etməlidirlər ki, təklif olunan həmin yolun əhəmiyyətli dərəcədə həm qısa, həm də olduqca iqtisadi baxımdan faydalılığı olduğunu özlərindən başqa heç kim hesaba almaya bilməz və bu məqamları gözməməzliyə vurmaq mümkünsüzdür. Üstəlik, Azərbaycanın öz ərazisində, öz yerində vəziyyətə nəzarət etməsi faktını hər kəs qəbul edir. Yəni, əslində belə də olmalı idi və bu baxımdan burada qeyri-adi heç nə yoxdur, çünki öz ərazisində nə edəcəyini suveren bir ölkə kimdən isə icazə alaraq etməli deyil. Daha dəqiq desək, hansısa bir ölkə, hansısa bir qüvvə, hansısa beynəlxalq təşkilat ölkəmizə bu rakursda heç bir irad bildirə bilməz. Yəni, hər kəs reallıqları qəbul etmək məcburiyyətində qaldı, hansıki, BMT Təhlükəsizlik Şurasına müraciət edib bu reallıqlara kölgə salınacağını düşünənlər ilk növbədə bundan dərs alsalar pis olmaz. Əslində, dərs almaya da bilməzlər, çünki belə müzakirələrə ehtiyac belə duyulmadığını müşahidə etdilər. Ermənilər müşahidə etdilər ki, hər kəs məsələnin yerində həll olunmalı olduğu qənaətindədir və bundan sonra nəyə isə ümid etməyə də dəyməz.

Qeyd olunan məqamlar Azərbaycanın həm də haqlı olduğunu göstərdi. Haqlı olmaqla yanaşı ölkəmizin güclü olduğu da, nüfuz sahibi olduğu da bəyan oldu. Maraqlıdır, ermənilər daha nə qədər bunun şahidi olmalıdırlar ki, bundan nəticə çıxarsınlar. Daha nə qədər belə bir real faktları görməlidirlər ki, ölkəmizin haqlı olduğunu hamının qəbul etdiyini, buna qarşı çıxmağın belə mümkünsüzlüyünü etiraf etdiyini dərk etsinlər. Yəni yenə də başa düşməyə bilərlər bunu? Bir halda ki, BMT kimi mötəbər bir beynəlxalq təşkilatda bu qənaətə gəlinibsə, deməli, bundan sonra nəyə isə ümid etməyə dəyməz. Bundan sonra nəyə isə ümid etmək daha axmaqlığın da, qanmazlığın da son həddi sayılmalıdır. Ermənistan tərəfi, ələlxüsus da, gah "revanşizm", gah da "miatsum" deyib bağıran bir çox erməni axmaqlar gec də olsa anlamalıdırlar ki, beynəlxalq hüququn, haqq-ədalətin Azərbaydanın tərəfində olduğunu qəbul etməyən, etiraf etməyən yoxdur və belə olan halda bundan sonra yenə də buna oxşar xam xəyallara düşsələr, yenə də fiasko ilə qarşılaşmalı, üzləşməli olacaqlar.

***İnam Hacıyev***

---

# "Ermənistan BMT-ni manipulyasiya etməkdənsə, sülh istiqamətində praktik addımlar atmalıdır"

"Ermənistan BMT Təhlükəsizlik Şurasında Azərbaycanı şantaj etməyə çalışsa da alınmadı. Çünki Azərbaycanın atdığı bütün addımlar beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğundur. Laçın yolu ilə bağlı iddiaların heç bir əsasının olmadığı bir daha təsdiqini tapdı. Azərbaycanın "Ağdam-Xankəndi" yolundan istifadə təklifi beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılandı və yüklərin Azərbaycanın Qarabağ bölgəsinə qanuni və şəffaf şəkildə çatdırılmasını təmin etmək üçün Ermənistanın yaratdığı maneələrin qəti şəkildə aradan qaldırılmasının labüdlüyü bir daha təsdiqləndi". Bu sözləri SİA-ya açıqlamasında deputat Könül Nurullayeva deyib.



Onun sözlərinə görə, bir daha aydınlaşdı ki, Ermənistan BMT kimi ali qurumu da manipulyasiya etməyə çalışır: "Amma müzakirələr zamanı BMT Təhlükəsizlik Şurasının çoxsaylı üzvləri tərəfindən vurğulandığı kimi, regionda sülh və sabitliyin əsası həm sözdə, həm də əməldə suverenliyin və ərazi bütövlüyünün tanınmasıdır. BMT Təhlükəsizlik Şurasının üzvü olan bir neçə dövlət, eləcə də qardaş Türkiyə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin ehtiyaclarını ödəmək üçün məhsulların çatdırılması ilə əlaqədar, xüsusilə, Ağdam-Xankəndi yolu olmaqla, Azərbaycan tərəfindən təklif olunan bütün marşrutların fəaliyyət göstərməsi ilə bağlı səmimi dialoq və vicdanlı qarşılıqlı fəaliyyətin zəruriliyi barədə bəyanatlar səsləndirdilər. Azərbaycan XİN-in də bəyan etdiyi kimi, Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan Konstitusiyasında nəzərdə tutulmuş, habelə Azərbaycanın tərəfdar çıxdığı insan hüquqları üzrə bütün müvafiq beynəlxalq mexanizmlərə uyğun olaraq, bütün hüquq və azadlıqlarını təmin etməklə bərabərhüquqlu vətəndaş kimi reinteqrasiya siyasətini aparır. Hər iki istiqamətə sadiq olduğumuz kimi, suverenliyimizi və ərazi bütövlüyümüzü BMT Nizamnaməsində və beynəlxalq hüquqda təsbit edilmiş bütün qanuni vasitələrlə qoruyub saxlamaqda da əzmliyik. Bütün dünya ictimaiyyəti də görür ki, Azərbaycan normallaşma gündəliyinin irəli aparılmasında maraqlıdır.

Ermənistan BMT-ni manipulyasiya etməkdənsə, mövcud sülh təklifini düzgün dəyərləndirməlidir. Beynəlxalq hüquq normaları və bu çərçivədə götürülmüş öhdəlikləri vicdanla yerinə yetirməlidir".

***Ayşən Vəli***

# Azərbaycan-İndoneziya dostluq telləri daha da möhkəmlənir

## PREZİDENT İLHAM ƏLİYEV: "İndoneziya ilə münasibətlərin dostluq məcrasında inkişafında birgə səylər göstərəcəyik"

**Azərbaycan Prezidenti İlham Əliyev İndoneziya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə İndoneziya Respublikasının Prezidenti Coko Vidodoya təbrik ünvanlayıb.**

Təbrik məktubunda deyilir: "İndoneziya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram. İnanıram ki, Azərbaycan-İndoneziya münasibətlərinin dostluq məcrasında inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə, xüsusilə də Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində səmərəli əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik".

Təbrik məktubunda o da vurğulanır ki, Azərbaycan-İndoneziya münasibətlərinin dostluq məcrasında inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə, xüsusilə də, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində səmərəli əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

İndoneziya Prezidentinə və onun simasında dost İndoneziya xalqına öz adından və Azərbaycan xalqı adından ən səmimi təbriklərini və xoş arzularını çatdıran dövlətimizin başçısı bu bayram günündə Coko Vidodoya möhkəm cansağlığı, xoşbəxtlik, işlərində uğurlar, xalqına isə daim əmin-amanlıq və rifah arzulayıb.

### AZƏRBAYCAN-İNDONEZİYA ARASINDA İKİTƏRƏFLİ MÜNASİBƏTLƏR

Artıq bu gün Azərbaycan dünyanın ən nüfuzlu və sabit inkişaf etməkdə olan ölkələri arasında öz yerini kifayət qədər möhkəmləndirib. Bu da, təbii ki, müstəqillik illərində ümummilli lider Heydər Əliyevin formalaşdır-



dığı uğurlu daxili və xarici siyasət, eləcə də son 20 ildə Prezident İlham Əliyevin yürütdüyü milli maraqlara söykənən siyasi xəttin sayəsində mümkün olub. Xüsusi olaraq vurğulamaq lazımdır ki, iki il əvvələ qədər Azərbaycan dünyada Cənubi Qafqazın iqtisadi və hərbi gücü, nəhəng enerji və nəqliyyat infrastrukturlarının müəllifi, regionda söz sahibi olan aparıcı dövlət kimi tanınırdı. 2020-ci ilin Vətən müharibəsində isə bunların sırasına biri də əlavə olundu: Cənubi Qafqazın qalib dövləti. 44 günlük müharibədə qazanılan qələbə Azərbaycana dünyada olan ehtiramı daha da gücləndirdi, dövlətimizin nüfuzunu daha da artırdı. Artıq bu gün Azərbaycan öz gücü ilə tarixi ədaləti bərpa edib və yeni reallıqlar yaradıb. Bu isə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Və bu etibarın nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. O cümlədən, Azərbaycanla İndoneziya arasında münasibətlər ölkəmizin müstəqilliyini bərpa etməsindən sonra başlayıb. İndoneziya ölkəmizin müstəqilliyini tanıyan ölkələr sırasında altıncı olub. Belə ki, İndoneziya Respublikası 28 dekabr 1991-ci il tarixində Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıyıb, 24 sentyabr 1992-ci il tarixində iki ölkə arasında diplomatik əlaqələr qurulub. 2 dekabr 2010-cu il tarixindən isə artıq İndoneziya dövləti Azərbaycanda öz səfirliyini açıb və səfirlik fəaliyyətini Bakıdan davam etdirməyə başlayıb.

### İNDONEZİYA HƏR ZAMAN AZƏRBAYCANI DƏSTƏKLƏYƏN, ÖLKƏLƏRİMİZ ARASINDA ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİNƏ XÜSUSİ ÖNƏM VERƏN ÖLKƏLƏRDƏNDİR

Zaman-zaman bəzi dövlətlərin 44 günlük Vətən müharibəsindən əvvəl mövcud olmuş, lakin indiyə qədər geridə qalmış Qarabağ münaqişəsinə ikili standartlar səviyyəsində yanaşdığının şahidi olmuşuq. Lakin İndoneziya o ölkələrdəndir ki, Ermənistanın işğalçılıq siyasətini hər zaman pisləyib. Onu da vurğulamaq lazımdır ki, 44 günlük Vətən müharibəsi bizə dost və dost olmayan ölkələri üzə çıxardı. Bizim ədalətli mübarizəmizin yanında olan ölkələrdən biri də İndoneziya oldu. Belə ki istər İndoneziya XİN-i, istərsə də parlamenti səviyyəsində haqlı mübarizəmizə, suverenliyimizə, torpaq bütövlüyümüzə dəstək çağırışları oldu. Ermənistan silahlı qüvvələrinin ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə və vətəndaşlarımızın təhlükəsizliyinə qarşı yönəldilmiş təcavüzü İndoneziya parlamenitinin "Milli Oyanış Partiyası" fraksiyası tərəfindən pislənib, qınanıb və Azərbaycanın haqlı mübarizəsini dəstəkləyən bəyanat verilib.

Bir sözlə, bu gün Azərbaycanla İndoneziya arasında diplomatik əlaqələrin qurulmasından 31 il ötür. Avqustun 17-də İndoneziyanın Azərbaycandakı səfirliyi ölkəsinin müstəqilliyinin elan olunmasının 78-ci ildönümü ilə əlaqədar tədbir keçirib. Qeyd edək ki, İndoneziyanın müstəqilliyinin 78-ci ildönümünün mövzusu "İrəliləyən, inkişaf edən İndoneziya" olub. Bu, İndoneziya xalqının irəliləməsini və ölkənin inkişafını həyata keçirməkdə bir-biriləri ilə əməkdaşlıq ruhunu əks etdirir.

Bir sözlə, dövlət başçımızın söylədiyi kimi: "İnanıram ki, birgə səylərimizlə Azərbaycan-Qabon dostluq əlaqələri daha da inkişaf edəcək, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığımız bundan sonra da uğurla davam etdiriləcək".

**RƏFİQƏ HÜSEYNOVA**

# Soros Fondu gələn ildən yeni təxribatlara başlayır



"Açıq Cəmiyyət" adına istinad edərək inkişaf etməkdə olan ölkələrdə "demokratiya" dəyənəyini işə salan Soros Fondu yeni ildən yeni təxribatlara start verəcək. Bu barədə Fondun vəqflərinə göndərilmiş proqramlarda da yazılıb. Soros Fondu 2024-cü ildən etibarən Avropa İttifaqı ölkələrində öz proqramları üçün maliyyəni minimuma endirəcək. Əvəzində isə Avropa Birliyinə daxil olmayan, daha az çiçəklənən Avropa ölkələrinə, eləcə də dünyanın digər hissələrində fəaliyyətini genişləndirəcək. Bütün bunlar onu deməyə əsas verir ki, yeni ildən bir sıra ölkələrdə şaxnaşmalar, təlatümlər, qarışıqlıqlar, münaqişələr, hətta vətəndaş müharibələri də qaçılmaz ola bilər.

Soros Fondunun daxili yazışmalarından, hesabatlarından da görünür ki, "Açıq Cəmiyyət" Avropa İttifaqı ölkələrində işini bitirib və artıq bu sahədə kimsənin köməyə ehtiyac yoxdur. Növbədə başqa ölkələrdir. Daha münbit ölkələr isə Ukrayna, Moldova və bəzi Balkan dövlətləridir və siyahıya Qazaxıstanla Qırğızıstan da əlavə edilib. Yəni, adıçıkılən ölkələrdə vətəndaş qarşıdurması qaçılmazdır. Sual olunur, Soros Fondu niyə birdən-birə aktivləşib? Bəli, düz tapdınız, çünki ata Soros artıq yaşlanıb, heç özünü də idarə edə bilmir. 93 yaşlı Corc Soros ötən il iyunun əvvəlində investisiya biznesini 37 yaşlı oğlu Aleksandra təhvil verdiyini açıqlayıb. Bunun ardınca fondun idarə heyəti əməliyyat modelində əhəmiyyətli dəyişikliklər edib. Görünür oğul Soros atasından yarımçıq qalmış işləri şər maşınının həzmrabəəsindən keçirməyi planlaşdırır.

Bir məsələni də xüsusi olaraq qeyd edək ki, Soros Fondu "Açıq Cəmiyyət" olsa da, öz fəaliyyətini başqa təşkilatların əli ilə həyata yetirməyi mükəmməl bacarır. Buna hibrid üsul da deyirlər. Daha doğrusu, başqalarının əli və adı ilə iş görmək. Məsələn, 1980-ci illərin sonundan başlayaraq fəal siyasətə qoşulan Corc Sorosun əsas vuran əli məhz USAİD təşkilatıdır. Bu səbəbdən bir çox ölkələrdə həmin qurumu artıq "SOROSAİD" adlandırırlar. Həmin təşkilat isə Sorosun ayırdığı çirkli pullardan maksimum faydalanır. Soros isə bir senti belə hədər yerə xərcləmir. "SOROSAİD"dən vəsait alan istənilən şəxs dərhal Soros şəbəkəsinin bir həlqəsinə çevrilir və artıq ciddi öhdəliklərlə hər tərəfdən zəncirlənir. Bu həlqəyə daxil olduqdan sonra, geriyə yol qalmır. Belə ki, təbiətcə xain və fırıldaqçı olan Soros, digərlərinin eyni hərəkət etmək cəhdlərini qəbul edə bilmir və həmin şəxsləri özünün tam nəzarətində olan jurnalistlər vasitəsi ilə "ifşa" etməklə məhv edir. Lap mafiya klanlarında olduğu kimi. Sadəcə, mafiya klanları onları tərk edənlərin qətlə yetirirdi. Sorosun qisasları isə, əslində, qətldən də betər bir haldır...

**A.Babayev**

# "Çox çalışan, oxuyan uşaqlarda həyəcan-təşviş pozuntusu daha çox müşahidə edilir"

*PSİXOLOQ DANIŞDI*



"Məktəb dönəmində şagirdin stress yaşaması, bəzən tətildən sonra yenidən məktəbə başlamaq istəməməsi görülən hallar sırasındadır. Belə vəziyyət xüsusən valideynləri daha çox narahat edir. Belə ki, ələlxüsus uzun müddətli tətil günlərindən sonra şagirdlərdə məktəbə, dərslərə qarşı adaptasiya problemi yaranmağa başlayır". Bu sözləri SİA-ya açıqlamasında Amerika Beynəlxalq Nevrorequlyasiya və tədqiqatlar Dərnəyinin rəsmi Azərbaycan təmsilçisi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, uzman-klinik psixoloq Narınc Rüstəmova deyib.



Onun sözlərinə görə, bunlardan əlavə yuxu pozulmaları, səhər erkən oyana bilməmək və məktəbə gecikmələr də artmağa başlayır və adı ilə bütöv bir şəkildə şagirdə mənfi təsir göstərir və dərslərdə müəyyən dərəcədə gerilməsinə, dərs buraxmasına səbəb olur: "Bütün bunlar son nəticədə, hətta həyəcana, stess halına və bundan yaranan depressiv vəziyyətlərə də gətirib çıxara bilir.

Peşəkar psixoloqun dəstəyi ilə, belə problemlər korreksiya edilə və zamanla aradan qaldırıla bilər. Bunun üçün, psixoloq əvvəlcə pasientlə doğru nəfəs gimnastikaları üzərində işləməli və həmin stess, həyəcan situasiyada hansı nəfəs texnikasını etməsi lazım olduğunu ona öyrətməlidir. Belə ki, bu nəfəs gimnastikaları həmin an həyəcanı, qan dövranını nəzarətdə saxlayaraq beyinin oksigen ilə zənginləşməsinə, şagirdin və ya abituriyentin sakitləşməsinə, rahat şəkildə dərslərə, tapşırıqlara konsentrasiya ola bilməsinə kömək edir. Əlavə olaraq onu da deyə bilərəm ki, nəfəs texnikaları, gimnastikaları standart və qəlibləşmiş formada deyil, müxtəlif olur. Belə ki, bu şagirdə, abituriyentə və tələbəyə, onların yaşadığı stress və həyəcanın ağırlıq dərəcəsinə görə fərqlənir.

Hər zaman çox çalışan, oxuyan, kiçik detallara belə nəzər yetirən uşaqlarda həyəcan-təşviş pozuntusu daha çox müşahidə edilir. Belə uşaqlar həmişə belə desək, hər şeyin ən yaxşısına nail olmaq istəyir və mükəmməliyyətçi olurlar. Ona görə də, işlər tərs getdikdə, istədikləri nəticəni əldə edə bilmədikdə panikaya düşür və stress yaşayırlar.

Qeyd etdiyim kimi belə hallar, yeni məktəb dönəmində stress, məktəbə adaptasiya problemi, imtahan zamanı həyəcan-təşviş və s. daha da dərinləşmədən zamanında psixoloqa müraciət edilməlidir".

**Səbinə Hüseynli**

# Hansı yaxşıdır: diplomlu işsiz, ya peşə təhsilli mütəxəssis?

**11 avqust 18:00-dan etibarən 2023/2024-cü tədris ili üçün peşə təhsil müəssisələrinə tələbə qəbulu prosesinə yekun vurulub. 28 iyul tarixindən etibarən www.portal.edu.az platforması vasitəsilə 24090 nəfərdən 75140 müraciət daxil olub. Peşə təhsili almaq istəyən şəxslər əsasən İKT, turizm, sənaye, kənd təsərrüfatı və iaşə istiqamətlərində olan ixtisasları seçməyə üstünlük veriblər.**

Müsabiqənin nəticələrinin 21 avqust tarixində elan olunması nəzərdə tutulur. Nəticələr müraciətçilərə SMS vasitəsilə təqdim edilməklə yanaşı, "şəxsi kabinet" bölməsində də yer alacaq. Ümumilikdə, ölkə üzrə 102 Peşə təhsili müəssisəsinə qəbul həyata keçirilir.

Peşə təhsil pilləsi üzrə boş qalmış plan yerlərinə tələbə qəbulunun II mərhələsinin 1 - 5 sentyabr tarixlərində baş tutması planlaşdırılır. Qeyd edək ki, 2023/2024-cü tədris ili üzrə tələbə qəbulunun I mərhələsi 66 peşə təhsil müəssisəsində 128 ixtisas olmaqla 25420 yer üzrə aparılıb.

Hazırda ölkəmizdəki peşə təhsili mərkəzlərində, peşə liseylərində sənətşünaslıq, mədəniyyət və incəsənət, iqtisadiyyat, xidmət, avtomatika və idarəetmə, kənd təsərrüfatı, balıq və meşə təsərrüfatı, energetika, elektrotexnika, cihazqayırma və optik texnika, radiotexnika, rabitə və informasiya texnologiyaları, metallurgiya, maşınqayırma və metal emalı, aviasiya, kosmik raket, dəniz texnikası və nəqliyyat vasitələri, kimyəvi və biokimyəvi texnologiya, ilkin tələbat və ərzaq mallarının texnologiyası, habelə inşaat və arxitektura ilə bağlı bir çox peşə tədris olunur.











## Bunlar tam fərqlidir

Qeyd edək ki, Peşə Məktəbi, Peşə Liseyi, Peşə Təhsil Mərkəzləri bir-birindən fərqlidir. Dövlət və özəl peşə məktəbləri, habelə tələbələrinə təqaüd verən peşə məktəbləri var. Tələbələrdən aylıq, illik ödəniş alaraq onlara peşə təhsili öyrədən peşə məktəbləri var. Peşə məktəblərinə 11 illik və 9 illik bazadan qəbul olmaq olur. Peşə məktəblərində 11 illik bazadan 1 il (10ay), 9 illik bazadan 3 il təhsil alırsınız. Peşə məktəbləri də tədris ilinin sonunda diplomla yanaşı diplom əlavəsi (UMOG balı) verir. Peşə məktəbləri artıq bir növ kollec sayılır. Peşə məktəblərinin UMOG BALI yüksək olanlar kolleclərə müraciət edə bilərlər, bir halda ki 9 illik bazadan 3 il təhsil almış olsun. Peşə məktəblərini yüksək ixtisaslar üzrə bitirənlər də subbakalavr statusu alır ki, bu da ali məktəbə imtahansız qəbul şansı verir.

Peşə məktəblərinin bəzilərini bitirənlərin attestatında möhür yerində dövlət əsaslı yazılır ki, bu da bəzi hallarda ikinci təhsili ödənişli almağa səbəb olur. Bütün bunlara baxmayaraq peşə təhsili alanlar 1 dəfə dövlət əsaslı (ödənişsiz, pulsuz) təhsil almaq hüququna sahibdir. Onlar 1 dəfə ödənişsiz kollec və 1 dəfə ödənişsiz ali məktəbdə təhsil ala bilər. Peşə məktəblərini bitirənlər çox vaxt peşə məktəblərində hansısa ixtisası və ya peşəni təlim edən şirkət ya sektorlar tərəfindən birbaşa işə dəvət alırlar.

Peşə məktəbinə yaşadığın zona üzrə qəbul olunmasan, yəni yer olmasa, digər zonaların peşə məktəblərinə də müraciət edərək asanlıqla qəbul ola bilərsiniz. Bunun üçün həmin bölgədə müvəqqəti yaşadığınıza dair yaşayış yerindən müvəqqəti qeydiyyata alındığınız haqqında arayış təqdim etməlisiniz. Peşə məktəbində oxuyarkən oxuduğunuz ixtisasdan əlavə həmin məktəbin tərkibindəki digər kurslardan da yararlanmaq şansınız var.

Peşə məktəbləri də digər ali təhsil ocaqları kimi tələbələrinə təqaüd təyin edir. Peşə məktəbində təhsil aldığınız ixtisasdan asılı olaraq çox vaxt ixtisas təlimləri elə məktəbin özündə olur. Peşə məktəbləri də digər ali və ya orta ixtisas təhsili məktəbləri kimi ilin sonunda tələbələri arayış (göndərişlə) təlimə (praktika) göndərir.

## Peşə təhsili vacibdirmi?

Peşə təhsili, ixtisaslı kadrların hazırlanmasını və onların rəqabət qabiliyyətinin artırılmasını təmin etmək məqsədi ilə tabeliyindəki peşə təhsili müəssisələrinin fəaliyyətini təşkil edir və əlaqələndirir. Peşə məktəbləri, təhsilini əmək bazarının tələblərinə fasiləsiz uyğunlaşdırmaq məqsədi ilə əlçatan, səriştələrin inkişafı və karyera yönlü davamlı peşə təhsili və təliminin həyata keçirilməsini təşkil edir, peşə təhsili müəssisələrinin maddi-texniki bazasının inkişafı istiqamətində tədbirlər görür.

Peşə təhsili müəssisələri öz müəssisələrində peşə hazırlığının səmərəliliyini artırmaq məqsədi ilə işəgötürənlərlə birgə dövlət-biznes əməkdaşlığı çərçivəsində proqramların hazırlanmasını və həyata keçirilməsini təmin edir. Qeyri-formal və informal üsullarla əldə edilmiş səriştələrin tanınması ilə bağlı metodikaları hazırlayır və tətbiqini təmin edən bu müəssisələr peşə təhsili sahəsində beynəlxalq proqram və layihələrin əlaqələndirilməsini təşkil edir. Peşə məktəbini bitirən tələbələri, adətən, müəssisə ilə əməkdaşlıq edən işəgötürənlər işlə təmin edir.

***Lalə Mehralı***

# "Hraparak" nəşri: "Bu proses erməni ordusunda təşvişə səbəb olub"



Ermənistan mətbuatı məğlub ölkənin dağınıq ordusunda baş verən son prosesləri gündəmə gətirməyə çalışır. Xüsusilə erməni mediasının diqqətində Müdafiə Nazirliyində aparılan islahatlar fonunda həyata keçirilən sertifikatlaşdırma prosesidir. "Hraparak" qəzeti yazır ki, orduda təşvişə səbəb olub. Bildirilir ki, orduda qeyri-sağlam ab-hava yaradan bu proses peşəkar kadr itkisi ilə nəticələnə bilər. Səbəb isə attestasiyada hərbçinin nə döyüş yolunun, nə yaşının, nə də peşəkarlığı faktının rol oynamasıdır.

"Sertifikatlaşdırma iki hissədən ibarətdir: birinci nəzəridir, peşəkar testlərdən ibarətdir. İkincisi praktiki tapşırıqlardır və sıra təlimi hazırlığı ilə bağlıdır ki, bundan da kimi yaşına görə, kimi də döyüş yaralarına görə keçə bilmir.

Nəticədə onlar attestasiyadan kəsilir, real əməkhaqqı isə aşağı həddə qalır ki, bu da inflyasiya şəraitində yaşamağı mümkünsüz edir. Məlumata görə, bu qeyri-bərabər və qeyri-sağlam mühitdə bəziləri artıq xidmətdən istefa veriblər, bəziləri də getmək haqqında düşünürlər. Bu isə ordu üçün ağır nəticələrə səbəb ola bilər", - deyə qəzet yazır.

***Mətləb Salahov***

# Vüqar Rəhimzadə: “BMT-dən Fransa və Ermənistana növbəti zərbə”



Hazırda günümüzün əsas müzakirə mövzusu avqustun 16-da BMT Təhlükəsizlik Şurasında Azərbaycanın Qarabağ bölgəsinin ermənilərin yaşadığı hissəsinin Ermənistanla birləşdirən Laçın-Xankəndi yolunun guya ”bağlanmasından” sonra yaranmış ”humanitar böhran”ın müzakirəsi və ölkəmizin növbəti diplomatik uğurudur. Ermənistan yenə də ona havadarlıq edən dövlətlərin dəstəyinə arxalanaraq BMT Təhlükəsizlik Şurasına müraciət etdi və daim ədalətin, beynəlxalq hüququn yanında olan Azərbaycanın diplomatik gücünün bir daha şahidinə çevrildi. Onu da qeyd edək ki, bu, Fransa və Ermənistanın növbəti iflasıdır. Belə ki, ötən ilin dekabrında da sözügedən məsələnin BMT Təhlükəsizlik Şurasında qaldırılmasına cəhd göstərilsə də, nəticəsiz qalmışdı. Təbii ki, Ermənistanın bu əsassız təbliğatları, yalanları, beynəlxalq ictimaiyyətin diqqətini məsələnin əsl mahiyyətindən yayındırmaq cəhdləri bizə 30 illik işğal dövrünün reallıqlarını yada salmağa çağırış edir. 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz yeni reallıq yaratsa da keçmişdə yaşananlar, eyni zamanda, dünyada ədalət və beynəlxalq hüquq prinsiplərinin hansı şəkildə tətbiq edildiyi və qorunduğu unudulmur. İşğalçını adı ilə çağırmağın bəzi güclər üçün nə qədər ”çətin” olmasına baxmayaraq, Ermənistana hərtərəfli dəstək belə qənaət yaradırdı ki, sanki təcavüzkarı müdafiə etmək beynəlxalq hüququn prinsipidir. Amma Azərbaycan keçmişdə qalan Qarabağ münaqişəsinin həllində vacib amillərdən bəhs edərkən beynəlxalq dəstəyi önə çəksə də bununla kifayətlənmədi, əksinə, daxildə daha da möhkəmləndi və tarixi ədaləti öz gücünə bərpa etdi.

SİA-nın əldə etdiyi məlumata görə, bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə diqqəti Azərbaycan Xarici İşlər Nazirliyinin BMT-də aparılan müzakirələrlə bağlı bəyanatına yönəldərək vurğulayıb ki, Ermənistanın BMT Təhlükəsizlik Şurasından növbəti dəfə şantaj kampaniyası üçün istifadə etmək cəhdi uğursuzluğa düçar oldu. Belə bir ali orqanı Ermənistanın bu cür manipulyasiya və istismar etmək səyləri postmünaqişə dövründə normallaşma gündəliyinin irəli aparılması baxımından qeyri-məhsuldar olmaqla yanaşı, son dərəcə destruktivdir. Bəyanatda, həmçinin bildirilir ki, Azərbaycan Ermənistanın məsələlərin həll yolunun konstruktiv qarşılıqlı fəaliyyət, habelə beynəlxalq hüququn normalarının və bu çərçivədə götürülmüş öhdəliklərin vicdanla yerinə yetirilməsindən keçdiyini anlayacağına ümid edir. BMT Təhlükəsizlik Şurasının çoxsaylı üzvləri tərəfindən vurğulandığı kimi, regionda sülhün və sabitliyin əsası həm sözdə, həm də əməldə suverenliyin və ərazi bütövlüyünün tanınmasıdır. Bir daha təsdiq edildi ki, belə müzakirələrə ehtiyac yox idi. Məsələ BMT və digər platformalarda deyil, yerində həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyünə hörmət ifadə edildi və Ağdam yolunun açılması vacib sayıldı. Ən əsası Azərbaycanın yerində vəziyyətə nəzarət etməsi faktı qəbul edildi. Sual olunur: Ermənistan bundan sonra sülhdən necə danışacaq? Azərbaycanın irəli sürdüyü sülh təklifi beynəlxalq hüququn 5 əsas prinsipini özündə ehtiva edir ki, onların sırasında ərazi bütövlüyünün tanınması əsas şərtlərdəndir. Ermənistan sülh müqaviləsinin imzalanması ilə bağlı keçirilən görüşlərdə bu prinsipləri dəstəkləsə də Azərbaycan bunun sənəddə qeyd edilməsinə çağırış edir.

YAP Xətai rayon təşkilatının sədri onu da qeyd edib ki, mayası yalan, hiylə və xəyanətlə yoğurulan ermənilər beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq üçün total böhtan və feyklərdən istifadə etsələr də, son nəticədə yalanın həqiqət üzərində qələbəsinin mümkünsüzlüyünün şahidinə çevrilirlər. BMT Təhlükəsizlik Şurasındakı müzakirələr Ermənistan diplomatiyasının tam iflasıdır. Ermənistanın, erməni diasporunun, ermənipərəst dairələrin səyləri növbəti dəfə nəticəsiz qaldı. Qısa desək, toplaşdılar, söhbətləşdilər və dağılışdılar. Yaşanan bu mənzərə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük İkinci Qarabağ müharibəsində bütün çıxışlarında, xalqa müraciətlərində hər kəsin səbirsizliklə gözlədiyi bu ifadəni bir daha yada saldı: nə oldu, Paşinyan? Ermənistan və ona havadarlıq edən dövlətlər artıq bu reallığı qəbul etmək məcburiyyətindədirlər ki, yalanlarının ayaq tutub yeridiyi zamanlar Birinci Qarabağ müharibəsi dövründə qaldı. Artıq Azərbaycan o dövrün Azərbaycanı deyil. Bu günə qədər ermənipərəst siyasəti ilə diqqətdə olan, ölkəmizin əleyhinə təbliğat aparan bəzi dünya güclərinin də bu gün Qarabağın Azərbaycana məxsus olduğunu söyləmələri Azərbaycanın real faktlara, tarixi həqiqətlərə söykənərək imza atdığı tarixi Zəfərinin təqdimatıdır. Azərbaycan Qarabağın ədalət, milli qürur məsələsi olduğunu döyüş meydanında bir daha işğalçı Ermənistana və onun havadarlarına sübut etdi. Ermənilərin feyk xəbərləri tarixi Zəfərimizlə fiaskoya uğradı. Lakin postmünaqişə dövründə Ermənistanın və onu dəstəkləyənlərin etdikləri cəhdlərin kökündə sülh müqaviləsinin imzalanması prosesini uzatmaq, müxtəlif bəhanələrlə bu vacib addımı atmaqdan yayınmaq durur.

BMT Təhlükəsizlik Şurasına edilən müraciət və qurumun bu məsələ ətrafında apardığı müzakirələr də bu siyasətin tərkib hissəsidir. Müzakirələr Azərbaycanın diplomatik qələbəsi ilə sona çatsa da bu mühüm məqamı qeyd etməliyik ki, dünyada sülhün və təhlükəsizliyin təminatında əhəmiyyətli rola malik olan bir qurum sözsüz ki, belə müzakirələrdən əvvəl araşdırmalara, gündəmə gətirilən məsələnin nə dərəcədə reallığı özündə əks etdirməsinə xüsusi diqqət yetirməlidir. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməni təkbaşına icra edən Azərbaycan hər addımında ədalətə və beynəlxalq hüquqa söykəndiyini nümayiş etdirir.

Vüqar Rəhimzadə Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyevin iclasdakı çıxışına diqqəti yönəldərək bildirib ki, qeyd edildiyi kimi, Ermənistanın humanitar məsələ kimi təqdim etməyə çalışdığı, əslində, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirmək üçün aparılan təxribat xarakterli və məsuliyyətsiz siyasi kampaniyadır. Hadisələrin gedişi bir daha sübut edir ki, Ermənistan məsələni həll etmək niyyətində deyil. Bunun əvəzində beynəlxalq səviyyədə manipulyasiya və çaşqınlıq səylərini davam etdirmək məqsədilə regionda gərginliyi süni şəkildə alovlandırmağa çalışır. Müzakirələrdə bir daha bu reallıq diqqətə çatdırıldı ki, ”Laçın dəhlizi” adlanan yol Azərbaycanın suveren ərazisi daxilində nəzərdə tutulmuş yoldur. Azərbaycan üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərə sadiq qalaraq bu yolda hərəkətə icazə verib. Azərbaycan Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi təsis etdikdən sonra da bu, olduğu kimi qalır. Sərhəd-buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini qorumaq üzrə təməl hüququ çərçivəsində yaradılıb. Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 6 iyul tarixli yekdil qərarı Ermənistanın nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbini rədd edərək, Ermənistanın ”Laçın” keçid məntəqəsinin qanunsuz olması ilə bağlı iddialarını qəti şəkildə təkzib edib. Belə bir əminlik də ifadə edildi ki, beynəlxalq ictimaiyyət və ilk növbədə, Təhlükəsizlik Şurası bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət edilməsi yolu ilə hər iki ölkənin legitim maraqlarına uyğun olaraq, bərabər və qarşılıqlı hörmətə əsaslanan bu yanaşmanı dəstəkləyəcək. Beynəlxalq hüquq da, ədalət də Azərbaycanın tərəfindədir.

## ”Prezident İlham Əliyev regionların sosial - iqtisadi inkişafını daima öz diqqətində saxlayır”

“Ölkə rəhbəri cənab Prezident İlham Əliyev regionların sosial -iqtisadi inkişafını daima öz diqqətində saxlayır. Belə ki, Dövlət proqramının icra olunduğu 2004-2018-ci illər ərzində ÜDM 3.3 dəfə, o cümlədən, qeyri-neft sektoru üzrə 2.8 dəfə, sənaye üzrə 2.6 dəfə, kənd təsərrüfatı 1.7 dəfə artmışdır”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Samir Heydərov deyib. Onun sözlərinə görə, bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində 1.5 milyon daimi iş olmaqla 2 milyondan çox yeni iş yeri,100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5.1 faizə endrilmişdir: ”Görülən işlər qarşıda görüləcək işlər üçün geniş zəmin yaratmışdır.”2019-2023 Regionların sosial-iqtisadi inkşaf proqramı” çərçivəsində ölkə rəhbərliyi tərəfindən yaşayış məntəqələrində yol infrastrukturunun tikintisi, infrastruktun qurulması, iş yerlərinin açılması planlı şəkildə həyata keçirilir.Bu ilin Dövlət büdcəsində yol infrastrukturunun tikintisinə dövlət əsaslı investisiya qoyuluşlarına 2 milyard 660 milyon 440 min manat vəsait ayrılmışdır”.Samir Heydərov sözlərinə belə davam edib: ”Bu nöqteyi-nəzərdən cənab Prezident İlham Əliyev Qax rayonun Qax-Qaşqaçay-Armudlu (11 km)-Aşağı Malax-Qaşqaçay-Armudlu yolunun tiknitisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalamışdır.Sərəncam 2 min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən rayonun Qax-Qaşqaçay-Armudlu (11 km)-Aşağı Malax-Qaşqaçay-Armudlu yolunun tikntisi məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 4.9 milyon manatı vəsaitin ayrılmasını ehtiva edir.Qax rayonu Azərbaycan Respublikasının Şəki -Zaqatala iqtisadi rayonuna aiddir. Rayon iqtisadiyyatını xüsusilə bitkiçilik,heyvandarlıq məhsullarının istehsalı təşkil edir. Rayon əsasən qərzəkli meyvələrin istehsalı ilə tanınır (fındıq,şabalıd,qoz).Qax rayonu eyni zamanda bir çox faydalı qazıntılarla da zəngindir; kükürd, polimetal filizi.Qax rayonunda respublikanın mühüm meşə və su ehtiyatları yerləşir. Zəngin təbii coğrafi şəraiti olan Qax rayonu mühüm turizm bölgəsidir”.



**_Ayşən Vəli_**

XATIRLAMA

# Müslüm Maqomayev: bir ömür "Azərbaycan"



Dünyaya insan gəlir. Eyni doğulanlar, fərqli insanlar dünyasına... Doğumlar nə qədər bir-birinə bənzəsə də, insanlar bir o qədər fərqlidir bu dünyada. 81 il öncə avqustun 17-də məşhur Maqomayevlər nəslinin davamçısı olaraq dünyaya göz açan Müslüm kimi. Hamı kimi doğulmuşdu, lakin illər sonra onun fərqliliyinə hər kəs şahid olacaqdı. Çünki Müslüm Maqomayev yumruq boyda ürəyinə böyük Azərbaycan sevgisini sığdırıb bir ömür "Ey, əziz anam, Azərbaycan! Sənə bağlıyam, Azərbaycan! Ömrümün mənasısan, qardaşlıq dünyasısan, anamın anasısan, Azərbaycan" deyərək dünyanı gəzəcək, bütün konsertlərinin həm əvvəlində, həm də sonunda "Azərbaycan" deyəcəkdi. Həm qəlbindən, həm dilindən "Azərbaycan" kəlməsi düşməyəcək, onu ölkə-ölkə dünyanın hər yerinə özü ilə aparacaqdı. Əslində isə Müslüm Maqomayev "Azərbaycan"la bir ömür Vətənini dünyaya tanıdırdı. Bir Vətənə bir övladın sevgisini təcəssüm etdirirdi. Bir vətəndaşın necə Vətən daşı olmasını göstərirdi.

***

Bizim nəsil Müslüm Maqomayevin səsini kəşf edəndə gənclik çağına yenicə qədəm qoymuşdu. Uşaqlıq, yeniyetməliyin yəqin ki, başımızı qatan oyunları, əyləncələri bu tanışlıqda bir qədər bizi ləngitmişdi. O zamanadək dinləməmiş deyildik Müslüm bəyi. Çünki o, hər an evlərimizdə idi. Lakin gözümüz gənclikdə daha çox açıldığından biz Müslüm Maqomayevin kim olduğunu elə o dövrdən anlamağa başlamışdıq. Çünki hər şeydən əvvəl televiziya ekranlarında yaraşıqlı bir adam görürdük. Bənzərsiz bir səsin fonunda isə fəqli bir insanı yaxından tanımış olurduq. Açığı bu insan bizə möcüzə kimi gəlirdi, desəm, daha çox yerinə düşər. Çünki onu həmişə səliqəli geyimdə, şux qamətdə, əzəmətli duruşda və heyranedici bariton səsinin sehri ilə qarşılayırdıq.








## Bakılı gənc dünyanı fəth edir

Doğum günündə Müslüm Maqomayevin keçdiyi ömür yoluna nəzər salmaq elə onu anmaq, xatırlamaqdır. Bu səbəbdən də xatırlayaq ki, kiçik yaşlarından istedadı kəşf edilən bu gözəl bəstəkar-müğənni 1950-ci illərin axırlarında, yeniyetməlik və ilk gənclik illərində Bakı məhəllələrindən birindəki həyətlərində, dostlarının arasında oxuyardı.

Bakıda tayı-bərabəri olmayan bu bariton səsi eşidən hər kəs istər-istəməz ona diqqət kəsilər, bu səsin sehrindən çıxa bilməzdi. Artıq 15-16 yaşında tanınırdı, öz pərəstişkarları vardı. Onu klublarda, məktəblərdə, institutlarda, hətta Bakı bulvarında oxumağa dəvət edirdilər. O isə bu dəvətlərin heç birini cavabsız qoymazdı.

Gənc Müslümün nadir səsi, qeyri-adi istedadı təbii ki, Azərbaycanın musiqi ictimaiyyətinin diqqətini də cəlb etmişdi. Məşhur dirijor və bəstəkar Niyazi onu çox sevir, sənətdəki hər addımına göz qoyur, qayğısına qalırdı. Oxumaqdan yorulmayan Müslüm təcrübəli pedaqoqlardan dərs aldıqca səsi daha da cilalanır və gözəlləşir, tembri zənginləşirdi. O, ilk rəsmi uğurunu 1962-ci ildə qazanır. Maestro Niyazinin tövsiyyəsi ilə tələbə və gənclərin Helsinkidə keçirilən VIII Ümumdünya Festivalına göndərilən Müslüm Bakıya medalla qayıdır. Populyar "Oqonyok" jurnalı onun portretini və "Bakılı gənc dünyanı fəth edir" başlıqlı məqalə dərc edir.

## Qeyri-adi həyat yolu

Qeyri-adi uğurlara imza atan Müslüm Maqomayevin həyat və sənət yolu da qeyri-adi olmuşdur. 19 yaşında Helsinkidə gənclər festivalında, 1963-cü ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti günlərində uğurlu çıxışları ilə şöhrət qazanmağa başlamışdı.

1960-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuş, İtaliyanın Milan şəhərindəki "La Skala" teatrında təcrübə keçmiş, Enriko Pyatsa ilə "Sevilya bərbəri" operasından Fiqaronun, "Toska" operasından Skarpianın partiyalarını hazırlamışdır.

1966-cı ildə Parisin "Olimpiya" konsert salonunda ilk konsertini vermiş, 1968-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmiş, 1969-cu ildə Sopotda (Polşa) keçirilən Beynəlxalq Mahnı Festivalında ilk mükafatını almışdır.

1975-ci ildə "Azərbaycan Dövlət Estrada-Simfonik Orkestri"nin bədii rəhbəri təyin edilmişdir. Bu orkestrlə Sovet İttifaqının bir sıra şəhərləri ilə yanaşı, Fransa, Bolqarıstan, Polşa, Finlandiya, Kanada və İranda konsertlər vermiş, 1970-ci illərdən həyatını estrada ilə bağlayıb və görünməmiş populyarlıq qazanmışdır.

Keçmiş SSRİ-nin hər yerində çıxışlar etmiş, stadionlarda konsertlər vermiş, televiziya onun konsertlərinə geniş yer ayırmış, qrammofon valları böyük tirajla buraxılmışdır. Repertuarı hərtərəfli və olduqca genişdir. Populyar mahnılarla yanaşı, dünya hitlərini, klassik əsərləri, kinolara yazılmış mahnıları məharətlə səsləndirmişdir. Azərbaycan Ali Sovetinin deputatı olmuş, bir sıra orden və medallarla təltif edilmişdir.

## Ən böyük arzu və əsl Fiqaro

Müslüm Maqomayevin ən böyük arzularından biri İtaliyada təhsil almaq olub. Nəhayət, həmin gün də gəlib yetişmiş və gənc Müslüm Azərbaycan Opera və Balet Teatrı tərəfindən "La skala" teatrına təcrübə toplamağa göndərilmişdir. O, hələ uşaqlıqdan Mattia Battistini, Enriko Karuzo, Mario del Monako, Tinna Ruffo kimi italyan klassiklərinin qramplastinkaları ilə maraqlanmış, onlardan qiyabi olaraq vokal dərsləri almışdır. İndisə gənclik xəyalları gerçəkləşmiş və ona Çenarro Barro, Enriko Pyatsa kimi canlı korifeylərdən dərs almaq nəsib olmuşdu.

Beləliklə, Müslüm Bakıya əsl Fiqaro kimi qayıtmış və "Seviliya bərbəri" tamaşasında səhnəyə çıxmışdır. Görkəmli pianoçu Rauf Atakişiyevlə dostluğu və əməkdaşlığı onun bu yolda daha böyük uğurlarına yol açmışdır. "Seviliya bərbəri" operasının hər tamaşası anşlaqla keçmiş və Bakı tamaşaçıları Fiqaronu - Müslüm Maqomayevi görünməmiş coşqu ilə qarşılamışdır.

Müslüm Maqomayev Eldar Quliyevin filmlərinə musiqi yazmış, daha sonra rejissor Qleb Drozdovun sifarişlərini yerinə yetirmişdir. Belə ki, o, "İqor polku haqqında dastan" əsərinin motivləri əsasında hazırlanmış "Yaroslavna" tamaşasına musiqi bəstələmişdir. Özü həmin tamaşada knyaz İqor, Tamara Sinyavskaya isə Yaroslavna rolunu ifa etmişdir.

## Tamara Sinyavskaya-Müslümün "Melodiya"sı

Nə qədər bacarıqlı, istedadlı, qabiliyyətli olursan, ol, istər kişi, istərsə də qadın olsun, gözəl həyatı ailə tamamlayır. Ailəsiz insan özünü həyatda tapa bilmir, sanki yarımçıq qalmış bir işin öhdəsindən gələ bilmir. Lakin ailə sanki uğurların da davamıdır. Həzin bir musiqidir, qulaq asdıqca doymadığını hiss etdiyin musiqi. Elə buna görə deyildimi Müslüm "Melodiya" mahnısını Tamara Sinyavskaya əsl sevgi nəğməsi olaraq həsr etmişdi.

Bir ömür bir-birini sevən, çətin gündə də, xoşbəxt günlərdə də sevinc və kədəri bölüşən bu iki insan həm də gözəl bir ailədə birləşib, onu 35 ilə çatdıra, ülvi hisslərini yaşada bilmişdilər. Bu insanları sevgi ilə yanaşı, həm də hörmət hissi bir-birinə bağlayırdı. Tamara xanımın dediyi kimi: Sevgidən, bağlılıqdan başqa, daha bir hiss var - dərin hörmət. Bax, əgər biz bir-birimizlə mübahisə etsək də, bu çox emosional, ucadan olur - amma 3 dəqiqəlik. Biz ayrı-ayrı otaqlara çəkilirik...və sonra çıxırıq: söhbət nədən gedirdi, yağışmı keçdi? Vəssalam. Mən Müslümə kişi mənşəyinə görə çox hörmət edirəm. O müdrikdir...Ümumi maraqlarımız çox idi. Xüsusən söhbət musiqidən, oxumadan gedəndə. Müslüm televizorla onda güclü emosiyalar yaradan kiminsə çıxışını görən kimi dərhal mənə deyirdi: "Sən bunu eşitdin?!". Və "suallar və cavablar", heyranlıq və ya hiddətlə dolu axşam başlayırdı. Müslüm çox emosional insan idi, lakin buna baxmayaraq bizim zövqlərimiz və rəylərimiz demək olar ki, hər zaman üst-üstə düşürdü. İndi bu əyləncəli dialoqları aparmaq üçün heç kim yoxdu...

## Azərbaycan Mülüm Maqomayevi yaşadır, yaşadacaq

Bizim xalq qədirbilən xalqdır. Həm Müslüm Maqomayev, həm də onun kimi yüzlərlə istedad sahibi bu xalqın həm qəlbində, həm də maddi-mənəvi irsində yaşayır, yaşadılır, yaşadılacaq da.

Müslüm Maqomayev xalqımız tərəfindən də, dövlətimiz tərəfindən də lazımi dəyərini alıb. Onun haqqında filmlər çəkilib, yubileyləri təntənəli şəkildə, dövlət səviyyəsində qeyd olunub. Mükafatlarını isə saymaqla bitməz.

Müslüm Maqomayev Bakıda dəfn olunub. Ömrünün sonunadək Azərbaycanla birlikdə dünyanı gəzən bu bənzərsiz istedad sahibi ömrün son günü Vətəninin torpağında uyudu. Çünki xalqımızın belə bir qədim deyimi də var: gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı.

## Və son-əlvida, ey Bakı...

Müslüm Maqomayevin Sergey Yeseninin sözlərinə bəstələdiyi və yalnız evindəki studiyada yazdırmağa macal tapdığı "Əlvida, ey Bakı" mahnısı onun sonuncu əsəri olub. Maraqlıdır, bu, bir təsadüf idimi, yoxsa həyatın gərdişimi?.. Nə üçün onun son əsəri məhz "Əlvida, ey Bakı" olub?

Həyat bəzən bizə elə töhfələr bəxş edir ki, onun nə olduğunu zamanla anlayırıq. Elə "Əlvida, ey Bakı" da həyatın Müslüm Maqomayevə töhfəsi olub. Bir ömür həyata töhfəsini verən sənətkara həyatın son töhfəsi. Bu töhfənin düşündürən cəhəti onun Bakı ilə, həm də vidalaşmaq kimi incə hisslərlə bağlı olmasıdır. Müslüm Maqomayev nə üçün musiqi bəstələmək üçün bu şeiri seçmişdi? Nə üçün "Əziz Bakı, əlvida! Son görüşdür, əlvida. Bir həyəcan, bir kədər könlümü etmiş Vətən. Ürəyim narahatdır bu ayrılıq çağında..." ifadələrinə musiqili nəfəs vermişdi? Bəlkə bu ifadələri elə ömrün son günü, son gün deyəcəyi söz kimi düşünürdü?..

Bu doğum günündə Müslüm Maqomayevi dərin hisslərə anır, onu dərin hörmət və sayğı ilə xatırlayırıq. Çünki onu Bakıya əsla "əlvida" demiş sanmırıq. O, Bakıdadır, paytaxtdan bütün Azərbaycana yayılan nəğmələrindədir. Bu nəğmələr susmayacaq ki, Müslüm Maqomayev də unudula...

***Mətanət Məmmədova***

# Tofiq Yaqublu və Əli Kərimli trolluğu daha üstün peşə hesab edirlər

Son günlər cinayəti demokratiya, xəyanəti fəaliyyət azadlığı kimi təqdim etməyə çalışan dağıdıcı müxalifətin sosial şəbəkə virusları şər kampaniyalarını bir qədər də təkmilləşdiriblər. Əli Kərimli, Tofiq Yaqublu, Gültəkin Hacıbəyli, Cəmil Həsənli və digərləri sosial şəbəkələrdə vurnuxan trollarını hakimiyyətə qarşı böhtanlarını genişləndirmək, xalqına və dövlətinə bağlı olan insanları təhqir etmək barədə xüsusi tapşırıqlar veriblər. Bu tapşırıqların icra vəziyyətinə nəzarəti isə AXCP-dəki trolların başçısı İlham Hüseynliyə və siyasi düşərgənin tüfeyli məxluqu T.Yaqubluya tapşırılıb. Söz yox ki, erməni daşnaklarının və fars-molla rejiminin ölkəmizə qarşı terror siyasətlərinin artdığı bir vaxtda dağıdıcı müxalifətin içimizdə qarışıqlıq yaratmağa çalışmaları onların xarici maraqlı dairələrdən xüsusi tapşırıqlar aldıqlarını göstərir. Ancaq bu parazitlər anlamırlar ki, "sirkə nə qədər tünd olsa, öz qabını çatladacaq". Gec-tez xalqa düşmən münasibətlərinə görə elə xalq tərəfindən ciddi şəkildə cəzalanacaqlar. Çünki Vətənə və dövlətə qarşı xəyanət yolu tutan bu satqın və naqis xəyanətkarlar cəzasız qala bilməz. Əks halda, ictimai qınaq sərt ola bilər. Necə ola bilər ki, T.Yaqublu ermənilərlə qardaşlığından uzun-uzadı nağıllar danışır. Cəmil Həsənli Laçın sərhəd-keçid məntəqəsindən humanitar yüklərin daşınmasına icazənin verilməsinin vacibliyini söyləyir. Gültəkin Hacıbəyli "türmədə aclıq aksiyası keçirən Aytac Əliyevaya azadlıq qisməti olmasın" deyə sayıqlayır. Əli Kərimli xalqımıza, bütün müsəlman-türk dünyasına qalibiyyət zəfəri bəxş etmiş ordumuza şər atır. Seymur Həzi, Fuad Qəhrəmanlı, İlham Hüseynli və digərləri sosial şəbəkələrdə dövlətçiliyimizə qarşı hər cür çirkin qarayaxma kampaniyasını aparırlar. O dərəcədə ağıllarını və başlarını itiriblər ki, küçə söyüşləri ilə çıxış etməkdən çəkinmirlər.



### Qubad İbadoğludan alət kimi istifadə etməyə çalışırlar

Dağıdıcı müxalifətin ağılsız siyasi fəaliyyətləri sırasında diqqətçəkən məqamlarından bir də əllərinə düşən hər bir imkandan bəhrələnməyə çalışmalarıdır. Daha çox da məlum cinayət əməllərinə görə, məsuliyyətə cəlb olunanlardan siyasi qazanc əldə etməyə cəhd etmələridir. Əli İnsanov həbs edilən kimi dağıdıcı müxalifət ortaya çıxıb, onun müdafiəsinə qalxdı. Az qaldılar ki, dünən haqqında hər cür ittiham irəli sürdükləri Ə.İnsanovu "qəhrəman" etsinlər. Müxtəlif vaxtlarda toplantılar keçirib, Ə.İnsanovun müdafiəsi ilə bağlı müzakirələr qurdular. Elə ki, Ə.İnsanov müxalifətdən imtina edib, hakimiyyətin mövqeyini müdafiə etdiyini bəyan etdi, oldu dağıdıcı müxalifətin düşməni. "Milli Şura" rəhbərliyi, AXCP funksionerləri onu satqınlıqda, xəyanətdə günahlandırdılar. İndi də eyni məzhəkəni Qubad İbadoğlunun ətrafında qurublar. Halbuki, dünənə qədər Ə.Kərimli, Cəmil Həsənli, Tofiq Yaqublu və digərləri Q.İbadoğlunu "istiqamətini müəyyənləşdirə bilməyən şəxs" adlandırıb, haqqında ittiham xarakterli məlumatlar tirajlayırdılar. İndi isə Q.İbadoğlunun həbsi maraqlarına cavab verdiyi üçün sözlərini və düşüncələrini dəyişiblər. Başlayıblar eyni ssenari üzrə Q.İbadoğlu haqqında təmtaraqlı sözlər söyləməyə. Sosial şəbəkələrdə vurnuxan trolların əksəriyyəti Q.İbadoğlu haqqında yazırlar. AXCP sədri Əli Kərimli boynunda bir neçə metr hündürlüyə tullanmağa cəhd edərək, yersiz-yersiz fikirlər səsləndirir. Deyir ki, "Qubad bəyi dərhal azad etmək lazımdır. İlk növbədə, təqsirkar olmadığı, ikincisi, xalqımız tələb etdiyi, üçüncüsü, bu həbslə əlaqədar ölkəmizin beynəlxalq aləmdə qınağa məruz qalmaması üçün".

Bu məxluqa başa salmaq lazımdır ki, istintaq başa çatmadan və məsələyə məhkəmə baxışı keçirilmədən, hərzə-hərzə danışmağa nə hacət. Digər tərəfdən də, artıq toplanmış sübutlar əsasında Daxili İşlər Nazirliyinin açıqladığı məlumat Q.İbadoğlunun cinayət törətdiyini təsdiqləyir. C.Həsənli isə iddia edir ki, Q.İbadoğlu xəstədir və Ombudsman ona baş çəkməməklə ədalətsizliyə yol verir. Lakin bu məxluq hələ də anlamır ki, Milli Preventiv Qrupun üzvləri Qubad İbadoğlu, Nazim Bəydəmirli və Əvəz Zeynallı ilə görüşüblər. Azərbaycan İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın tapşırığı əsasında Milli Preventiv Qrupun üzvləri tərəfindən Bakı İstintaq Təcridxanasına əvvəlcədən xəbərdarlıq etmədən növbəti başçəkmələr həyata keçirilib. Bildirilib ki, "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdə məqsəd müəssisədə saxlanma şəraiti, rəftar məsələlərinin monitorinqi və bir sıra təqsirləndirilən şəxslərin qəbul edilməsi olub. Başçəkmələr zamanı bir sıra şəxslərlə, o cümlədən, Qubad İbadoğlu, Nazim Bəydəmirli və Əvəz Zeynallı ilə konfidensial qaydada görüş keçirilib, onlarla rəftar, saxlanma şəraiti, tibbi xidmətin vəziyyəti öyrənilib, müraciətləri yerində araşdırılıb. Həmin şəxslərə hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunub. Eyni zamanda, bir sıra şəxslərin Ombudsmana ünvanlanmış ərizələri qəbul edilib, bəzi müraciətləri yerində təmin olunub. Başçəkmələrin yekununda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla söhbət aparılıb, milli və beynəlxalq qanunvericiliyə uyğun şəkildə müvafiq tövsiyələr verilib.

Bir sözlə, müvafiq dövlət qurumları qanunvericiliyin tələblərinə uyğun olaraq şəxslərə münasibətdə ayrı-seçkiliyə yol vermir. Hər bir kəs hüquqi, sosial, tibbi yardımlar göstərilir. Bunu cinayət məsuliyyətinə cəlb edilən şəxslər, o cümlədən də, Qubad İbadoğlu bilir və vəkili vasitəsi ilə yaxınlarına çatdırır. Bundan sonra Ə.Kərimlinin, Tofiq Yaqublunun, Cəmil Həsənlinin və onların ətrafında olan trolların ağzıgöyçəklik etmələri, sadəcə, onların buyruq qulları olmalarından irəli gəlir. Belə demək mümkünsə, bədbəxtlər reallığı dərk etməkdə acizdirlər, çünki xaricdəki ağaları onları cəzalandıra və maddi-mənəvi dəstəkdən məhrum edə bilər.

*İ.ƏLİYEV*



**Elçin Bayramlı**

# Tüstülü intiharlar

**Bu məsələ başı siyasətə və şou-biznesə qarışan televiziya və mətbuatın diqqət xaricindədir. Media siqaretdən qazanılmış xəstəliklərin müalicəsini həyata keçirən tibb mərkəzlərinin və dərman preparatlarının reklamından daha çox qazanır.**

Bu gün dünyada 1,5 milyarddan çox insan siqaret çəkir. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumata görə, narkotik və siqaretdən istifadədən ölüm hadisələrinin sayı 3-cü yerdə qərarlaşır. Ötən il tütün məmulatlarından istifadə 6 milyondan artıq insanın həyatına son qoyub. 2020-ci ildə isə, bu rəqəmin 2 dəfə artacağı gözlənilir.

Statistik məlumatlar Azərbaycan əhalisinin siqaret çəkməkdə dünya ölkələrinin çoxundan irəlidə olduğunu göstərir. Tədqiqatlara görə, ölkədə hər 10 nəfərdən 2-si siqaret çəkən hesab olunur.

Beləliklə də, ümumilikdə 1 milyona yaxın nəfərdən artıq vətəndaşımızın canına ziyan vurduğu ortaya çıxır. Təəssüfedici haldır ki, siqaret çəkən yeniyetmələrin və qadınların sayı getdikcə artır. Üstəlik, son vaxtlar sulu qəlyan çəkmə sürətlə dəbə minib ki, bu da siqaretdən dəfələrlə təhlükəlidir.

Tütün tüstüsünün bir qullabında 3000-dən artıq kimyəvi maddə var. Onların bir hissəsi zəhərli olur, digər hissəsi isə orqanizmdə toxuma səviyyəsində dəyişikliklər edir. Ən dağıdıcı təsiri isə qətran göstərir. Qətranın 70 faizi ağciyərlərə toplaşır. Nəticədə xərçəng və vərəm xəstəliyi yaranır.

Karbon monooksid (CO) isə siqaretin yanması prosesində daim yaranan qazdır. CO qanda oksigen dövranını pozur. Siqaret çəkənlərdə tez-tez rast gəlinən təngnəfəslik də CO-nun zərərli təsirindəndir. Amma siqaretə aludəçiliyi məhz nikotin yaradır. Nikotin alkoqol və kokain qədər güclü təsirə malikdir və asılılıq yaradan maddədir.

Tütün ağ ciyərlərdə xərçəng xəstəliyinin yaranmasının əsas səbəbkarı hesab edilir. Siqaret çəkmək habelə, ürək xəstəlikləri, iflic və xərçəng xəstəliklərinin digər formalarının yaranmasına gətirib çıxarır.

Amerika Xərçəng Cəmiyyətinin məlumatına görə, ağ ciyərdə xərçəng xəstəliyinin yaranmasına 87 faiz siqaret çəkmək səbəb olur. Tütün tüstüsündəki 43 komponent xərçəngin yaranmasına gətirib çıxarır.

Siqaret çəkən adamlarda rast gəlinən dəhşətli xəstəliklərə siqaret çəkməyən adamlarda da rast gəlinir ki, bu da onların siqaret çəkilən otaqda nəfəs alması ilə bağlıdır. Çünki, çəkilən hər siqaretin 25 %-i onu çəkənin orqanizminə hopursa, 50%-i nəfəs alınan havada qalır və tənəffüs zamanı həmin yerdə olanların ciyərlərinə yol tapır. Digər 25% isə yanıb kül olur.

Artıq bir çox ölkələrdə siqaretçəkməyə qarşı mübarizə gücləndirilir, ictimai, xüsusən də qapalı məkanlardan siqaret çəkilməsi qadağan edilir. Hətta, bəzi ölkələrdə dövlət vətəndaşlara siqareti tərgitmək üçün dərman və digər vasitələrlə pulsuz yardım göstərir.

Azərbaycanda da qapalı yerlərdə siqaret çəkmək qadağan edilib. Lakin bizdə bunun zərəri hələ tam dərk olunmur. Hətta, körpə uşaqların olduğu evdə siqaret çəkilməsi halları geniş yayılıb.

Tütün istehsalı və satışına məhdudiyyət qoyulması başqa ABŞ olmaqla bir çox dövlətlərin və transmilli şirkətlərin maraqlarına ziddir. Siqaret satışı illik 250 milyard dollardan artıq gəlir gətirir və tütün şirkətləri getdikcə böyüyür. Ancaq, bu iqtisadi artım bəşəriyyətin rifahına xidmət etmir.

Bu məsələ ilə bağlı dövlət səviyyəsində mübarizə aparılmalıdır. Bir çox ölkələrdə olduğu kimi bizdə də, dövlət siqareti tərgitmək istəyən vətəndaşlara bu işdə kömək etməlidir. Çünki, bunun nəticəsində milyonlarla vətəndaşımızı yüzlərlə təhlükəli xəstəlikdən xilas etmək, sağlam cəmiyyət yaratmaq olar.

# “Dünya reallıqlarına nəzər salsaq, ancaq güclü olanın sözünün keçdiyini görürük”

"44 günlük Vətən müharibəsi nəticəsində Ermənistan ordusunun darmadağın edilməsi ilə Azərbaycanın beynəlxalq aləmdə nüfuzu daha da artdı. Əfsuslar olsun ki, hazırkı dünya reallıqlarına nəzər salsaq, ancaq güclü olanın sözünün keçdiyini görürük. Azərbaycanın haqq savaşından sonra "Qarabağ Azərbaycandır" reallığı dünya dövlətləri və beynəlxalq nüfuzlu təşkilatlar tərəfindən qəbul edilmiş və Azərbaycanın haqlı mövqeyi dəstəklənmişdir". Bu sözləri SİA-ya açıqlamasında deputat Ülviyyə Həmzəyeva deyib.



Deputat sözlərinə belə davam edib: "Bu qələbəmizlə Ermənistanın havadarlarına da yerlərini göstərmiş olduq. Onlar da təcavüzkar Ermənistanla birlikdə hərəkət edərək 30 il haqsızlığa göz yummuşlar. Sözdə münaqişənin həlli üçün bəzi ədalətli qərarlar qəbul etməklə, əməldə təcavüzkarın yanında yer aldılar. Bunun ən bariz nümunəsi, Ermənistanın təcavüzü ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə 4 qətnamənin (822, 853, 874 və 884) qəbul olunması və bu qətnamələrdə ermənilərin təcavüzkar siyasətinin pislənməsi və erməni hərbi birləşmələrinin zəbt etdikləri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmalarının birmənalı şəkildə tələb olunmasıdır. Lakin Beynəlxalq hüququn tələb və prinsiplərinə məhəl qoymayan Ermənistan öz havadarlarına arxalanaraq işğalçı siyasətini daha da genişləndirmək məqsədilə 2020-ci ilin sentyabrın 27-də yenidən Azərbaycan üzərinə hücuma keçdi. Şanlı Azərbaycan Ordusu bu təxribatın qarşısını almaqla yanaşı, əks-hücum əməliyyatlarına başladı və BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icrasını təmin edərək, beynəlxalq səviyyədə tanınmış ərazilərimizi işğalından azad etdi.

Ermənistanın müharibədən sonrakı mərhələdə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi gözlənilən bir dövrdə bu ölkənin siyasi iradə nümayiş etdirmək əvəzinə müxtəlif təxribatlara əl atmaqla sülh prosesini uzatmaq istəməsi ən azından təəssüf doğurur. Azərbaycan bütün bu müddətdə sülh danışıqlarına hazır olduğunu, Ermənistanın obyektivlik nümayiş etdirərək reallıqları qəbul etməsi və ölkəmizə qarşı ərazi iddialarından əl çəkməsi halında sülh danışıqlarının nəticə verəcəyi ilə bağlı büynəlxalq tribunalardan öz mövqeyini daima bildirmişdir.

Lakin görünür köhnə adətlərindən əl çəkmək fikrində olmayan bəzi beynəlxalq təşkilatlar və dövlətlər, Azərbaycanın bu uğurundan qorxuya düşərək münaqişəni yenidən alovlandırmağa və sülh prosesinə zərbə vurmağa çalışaraq öz məkrli planlarını davam etdirmək xülyasına düşüblər. Hətda üslublarını daha da dəyişərək açıq şəkildə Azərbaycana qarşı olan nifrətlərini büruzə verirlər. Belə ki, BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçilərinin və müstəqil ekspertinin Laçın dəhlizinin blokadada saxlanıldığı və Qarabağda "gərgin humanitar vəziyyət" yarandığını iddia etməsi, BMT orqanlarının qeyri konstruktivliyinin göstəricisidir. Bu günlərdə də, Ermənistanın BMT Təhlükəsizlik Şurasına "Dağlıq Qarabağın mülki əhalisinin məcburi şəkildə tam blokadaya alınması ilə əlaqədar humanitar vəziyyətin pisləşməsi ilə əlaqədar" fövqəladə iclasın çağırılması xahişinə canla başla çalışan bir sıra qüvvələr vəziyyəti gərginləşdirmək üçün əllərindən gələni edirlər. Bu, həmin qüvvələrdir ki, BMT-nin Azərbaycan ərazilərinin qeyd- şərtsiz azad olunmasına dair qəbul etdiyi qətnamələrin müzakirəsi və icra olunması üçün 30 il heç bir iş görmədilər. Bu, BMT kimi nüfuzlu beynəlxalq qurumun dünyanın gözündə ədalətsiz bir təşkilat durumuna düşməsidir. Erməni lobbisinin yalançı təbliğatına aldanaraq Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmətsizlik etməsi, ikili standard siyasəti yeridərək qərəzli bəyanatlar verməsi, ölkəmizin daxili işlərinə qarışması beynəlxalq hüquq normalarının heçə sayılmasıdır.

Bəzi ölkələrin və beynəlxalq təşkilatların ikili standartlar nümayiş etdirərək işğalçı Ermənistanı dəstəkləməsi Azərbaycanın problemi hüquqi müstəvidə həll etmək iradəsindən döndərməyib. Lakin beynəlxalq ictimaiyyət anlamalıdır ki, Azərbaycan tarixən olmadığı qədər inkişaf etmiş iqtisadiyyata, nizami orduya, güclü tərəfdaşlara malikdir və ölkəmizin bütün çətinlikləri aşaraq modern dünya dövlətləri arasında öz layiqli yerini tutması üçün əzm və iradə nümayiş etdirən İlham Əliyev kimi Lideri var".

*Ayşən Vəli*

# Ermənistan və Fransanı birləşdirən dəyərlər...

## Soyqırımı, separatizm, ksenofobiya, terror, başqa xalqların sərvətlərinin mənimsənilməsi...





**Əbəs yerə deyilmir ki, zaman hakim, tarix isə yaddaşdır. Eyni zamanda, bu mühüm reallığı da unutmayaq ki, gələcəyə keçmişlə addımlayırıq. Azərbaycan hər zaman keçmişini unutmur, bu günü ilə qürur duyur və gələcəyə böyük inamla addımlayır. Ən əsas Azərbaycan xalqı yenilməz, məğrur, tarixinə sahib çıxan xalq kimi tanınır və nüfuz qazanır. Azərbaycan 30 illik işğal dövründə daim dünyaya bu çağırışı edirdi ki, həqiqətə həqiqət gözü ilə baxmağın zamanıdır.**

Ədalət və beynəlxalq hüquq maraqların arxasında əriyəndə, dünya ikili standartlara əsaslanan siyasətindən əl çəkməyəndə təbii ki, etimad mühitinin mövcudluğundan, inamdan danışmaq qeyri-mümkündür. Ölkəmiz 30 il bu yanaşma ilə üz-üzə qaldı. Bəzi dünya güclərinin erməni yalanlarına inanıb Azərbaycanı işğalçı, Ermənistanı isə işğala məruz qalan ölkə kimi təqdim etmələrinin şahidi də olduq. ABŞ Konqesinin erməni diasporunun səyləri nəticəsində Azərbaycana qarşı ”Azadlığı Müdafiə Aktı”na ədalətsiz 907-ci düzəlişi əlavə etməsi də bunun bariz nümunəsidir. Bütün bunlara baxmayaraq, Azərbaycan diplomatik mübarizəsini uğurla davam etdirdi. 2001-ci ildə ABŞ-da baş verən 11 sentyabr terror aktı bu rəsmi Vaşinqtonun xarici siyasətində mühüm dəyişikliklərə yol açdı. Belə ki, ABŞ hökuməti ”907-ci düzəliş”in ədalətsiz qərar olduğunu təsdiqlədi və onun bir illik fəaliyyətinin dondurulması ilə bağlı qərar qəbul etdi. Artıq həmin ildən başlayaraq hər il bu qərar yenidən təsdiqlənir. Qərarın birdəfəlik ləğvi prosesinin uzanması da dünyanın ikili standartlara əsaslanan siyasətinin bariz nümunəsidir.

İkili yanaşmadan, ən əsası Ermənistana dəstəkdən irəli gələn xeyli sayda faktları sadalamaq olar. Erməni diasporunun zaman-zaman apardığı təbliğata görə ermənilər beynəlxalq ictimaiyyətə ”yazıq, məzlum, əzilən və döyülən” millət kimi təqdim olunsalar da tarixi faktlar Azərbaycan xalqının 30 ildə necə vəhşi bir millətlə üz-üzə dayandığını təsdiqləyir. Faktlara əsaslanan tarix hər zaman bu tələbi ortaya qoyur ki, həqiqəti yalan təbliğatla deyil, faktlarla ortaya qoymaq gərəkdir. Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Azərbaycana əsassız torpaq iddiası irəli sürən ermənilərin dost, qardaş Türkiyəyə qarşı ”erməni soyqırımı” məsələsindən bir təzyiq vasitəsi kimi istifadə etməsi də məlum olaylardandır. Türkiyə rəsmilərinin bu məsələnin araşdırılması üçün tarixçilərdən ibarət türk-erməni komissiyasının yaradılması və dünya arxivlərinin açılması tələbi ilə çıxış etməsi daim qarşı tərəfdə böyük səs-küy yaradıb. Ermənistan hakimiyyəti ”bu kimi məsələlərlə tarixçilər deyil, siyasətçilər məşğul olur” söyləməklə özlərinə saxta tarix yazmaqda nə dərəcədə püxtələşdiklərini nümayiş etdirirlər.

Bir məqamı da qeyd edək ki, hətta işğalçı ölkədə ”erməni soyqırımı” abidəsi ucaldılaraq, ölkəyə səfər edən xarici ölkələrin rəsmilərinə bu abidəni ziyarət etdirməklə onun tanıdılmasına səy göstərirlər. Bu da erməni həyasızlığının bir göstəricisidir. Dünya güclərinin, o cümlədən Fransanın heç bir araşdırma aparmadan ”erməni soyqırımı”nı tanıması, hətta bunu digər ölkələrdən tələb etməklə yanaşı, daxildə bunu tanımayanlara qarşı cəzanın və cərimələrin tətbiqi məsələsini gündəmə gətirməsi dünyanın ədalətə, beynəlxalq hüququn norma və prinsiplərinə hansı şəkildə yanaşdıqlarını nümayiş etdirdi. Fransa istər 30 illik işğal, istər 44 günlük İkinci Qarabağ müharibəsi, istərsə də postmünaqişə dövründə bu meyarları kobud şəkildə pozaraq Ermənistana dəstəyi ilə müxtəlif sualların yaranmasına səbəb olur. Ermənistan və Fransanı birləşdirən dəyərlər hər kəsə məlumdur. Avropada ən çox müsəlmanın yaşadığı Fransada hər zaman İslam dininə qarşı təhqirlərin, etirazların şahidi olmuşuq. Fransa bu ölkədə yaşayan etnik azlıqlara qarşı olduqca qərəzli siyasət yürüdür və ayrı-seçkilik tətbiq edir. Bu fakt inkaredilməzdir ki, Fransada yaşayan fərdlərin irqi, etnik və dini mənsubiyyəti barədə məlumatın toplanması birmənalı qadağan edilib. Bu qadağalar davamlı ayrı-seçkilik hallarının qarşısını almaq və mübarizə tədbirləri görmək üçün səmərəli mexanizmlərin tətbiqinə imkan vermir. Başqa dinlərə nifrət zəminində törədilən cinayətlərin rəsmi statistikası aparılmasa da, ölkənin müsəlman əhalisi, qaradərili fransızlar, digər etnik və dini qruplara, xüsusilə müsəlmanlara qarşı qadağalar artır. Bu, bir daha onu göstərir ki, Fransada mənəvi və dini ayrı-seçkilik meyilləri artır, sivilizasiyaların toqquşması tezisi təbliğ edilir. Fransada islamofobiya bu ölkənin tarixi müstəmləkəçilik siyasəti nəticəsində formalaşıb və Makron hökumətinin yürütdüyü irqçi siyasətlə daha geniş vüsət alıb. Ermənistana siyasi, hərbi dəstəyini əsirgəməyən Fransa ilə təcavüzkar ölkəni birləşdirən dəyərlər də işğalçılıq, separatçılıq, ksenofobiya, terrorçuluq, başqa xalqlara məxsus sərvətlərin mənimsənilməsidir. Bununla Fransa Ermənistanı müdafiə etməklə yanaşı, həm də özünün müstəmləkəçilik siyasətinə haqq qazandırmış olur.

Bunları qeyd etməkdə məqsədimiz oldur ki, illərdir erməni vəhşilikləri, onların ört-basdır edilməsinə dünyanın əksər güclərinin dəstəyi gizlədilməyə çalışılsa da hadisələrin gedişi bir daha sübut etdi ki, faktları gizlətmək, yalanla həqiqət üzərində qalib olmaq mümkün deyil. Dövlət başçısı İlham Əliyev Şuşa Qlobal Mediya Forumunda jurnalistin ”Ermənilər Azərbaycanın mədəni irsinə qarşı planlaşdırılmış bu dağıntıları nəyə görə etdilər” sualını cavablandırarkən bildirmişdir ki, bu günə qədər də başa düşə bilmirəm bu qəddarlığın, bu nifrətin mənbəyi haradan qaynaqlanır? Çünki ermənilər Azərbaycan ərazisində uzun müddətdir ki, yaşayırlar. Tarixə diqqət yönəldən cənab İlham Əliyev bir daha bu həqiqətləri tədbir iştirakçılarının nəzərinə çatdırdı ki, ermənilərin kütləvi surətdə Qarabağa köçü XIX əsrin birinci yarısında başlamışdır. 1805-ci ildə Kürəkçay müqaviləsi nəticəsində Qarabağ xanlığı, ondan sonra imzalanmış Gülüstan və Türkmənçay müqavilələri ilə isə Azərbaycanın digər xanlıqları Rusiya imperiyasının tərkibinə daxil edilmişdir. Ondan sonra daha çox İrandan və Şərqi Anadoludan ermənilərin kütləvi məskunlaşması prosesi başlamışdır. Bunu təsdiqləyən çoxlu sənədlər var. Görkəmli dövlət xadimlərinin yazıları, məktubları, açıqlamaları - bütün bunlar tarixən təsdiqlənir: ”Yəni, onlar bu torpaqlara - Qarabağ torpağına qonaq kimi gəlmişdilər, o cümlədən Şuşaya. Onlar iddia edirdilər ki, Şuşa erməni şəhəridir. Birincisi, Şuşa şəhərinin tarixi o qədər də uzaq illərə getmir. 1752-ci ildə Pənahəli xan Şuşada şəhər salmışdır və keçən il Azərbaycanda ”Şuşa İli” elan olunmuşdur. Çünki biz Şuşanın 270 illiyini qeyd edirdik. Yaradılandan işğala qədər Şuşada yaşayanların mütləq əksəriyyəti azərbaycanlılar olub. Əgər Şuşa erməni şəhəri idisə, nə üçün belə acınacaqlı vəziyyətdə idi? Nə üçün Şuşanın 17 bulağı da işğal dövründə ermənilər tərəfindən qurudulmuşdur?”







Qısa təhlil bu qənaətə əsas verir ki, təbliğat real faktlara, tarixi həqiqətlərə əsaslananda daha inandırıcı və uzunömürlü olur. Eyni zamanda, dünyanın Fransa kimi gücləri bir mühüm məqamı da unutmamalıdırlar ki, ədalətin və beynəlxalq hüququn varlığına kölgə salaraq işğalçını, terroru dəstəkləyən bir ölkəni müdafiə etməklə ümumilikdə bu siyasətə dəstək olurlar. Bu isə öz növbəsində həmin ölkələrin nüfuzuna, söz sahibliyinə öz mənfi təsirini göstərir. Tarixi Zəfərimizdən sonra Fransaya qarşı yaranan etimadsızlığın son həddə çatması deyilənlərə bariz nümunədir.

***Yeganə Əliyeva***

# “Böyük Qayıdış”ın ”Füzuli salnaməsi”

## İlin sonunadək Füzuliyə 800 ailənin köçürülməsi nəzərdə tutulur

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış” istiqaməti çərçivəsində hazırlanıb



1993-cü ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilən Füzuli rayonu 29 il ara ilə iki dəfə işğaldan azad edilib. 1994-cü il Horadiz əməliyyatı zamanı rayonun bir hissəsi işğaldan azad edildikdən sonra, 2020-ci il 17 oktyabr tarixində Füzuli rayonu işğaldan tam azad olunub. Füzuli rayonunun əhalisi Qarabağ müharibəsində ölkəmizdən ən çox itkin və şəhid verən rayondur. Füzulinin 1100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var.

Füzuli Qarabağ dağ silsiləsinin cənub şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. O, Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir. Rayonun əsası 1930-cu ildə qoyulub və Qaryagin adlandırılıb. 1959-cu ilin aprelində böyük şairimiz Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişdirilərək Füzuli adlandırılıb.







BİLDİRİŞ

Hörmətli Abbasov Ramil Məcnun oğlu

Məlumat üçün bildiririk ki, siz və ailə üzvləriniz 21 avqust 2023-cü ... tarixində saat 06:30-da Füzuli rayonunun Füzuli şəhərinə daimi yaşayış üçün ... köçürüləcəksiniz. Ailənizin köçürülməsi üçün sizə 1 ədəd yük avtomobili v... "Qobu-Park 3" yaşayış kompleksindən sərnişin mikroavtobusu ayrılacaq. S... Bakı şəhərindən Füzuli rayonunun Füzuli şəhərinə qədər Daxili İşlə... Nazirliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsin... əməkdaşları müşayiət edəcək.

Qeyd: Toplanış yeri, Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəs... "Qobu-Park 3" yaşayış kompleksi, uşaq baxçasının qarşısı.

Əlaqə telefonları: +99412_530-19-43
+99455_900-12-82

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Repatriasiya departamentinin direktoru: Natiq Hüseynov

15 avqust 2023-cü il










27 illik işğaldan azad edildikdən sonra Füzuli rayonu nəhəng bir xarabalığı xatırladırdı. Vandallar bütün rayonun infrastrukturunu dağıdıb, yolları bərbad hala salıb, iaşə obyektlərini və yaşayış evlərini, mədəni-tarixi abidələri məhv etmişdilər. Rayonda geniş quruculuq işləri aparıldı, yeni məktəblər, xəstəxanalar, binalar tikildi, iqtisadi imkanlar genişləndirildi. Rayona vurulan maddi və mənəvi zərərin miqyası böyük olduğu üçün abadlıq işlərinin illərlə çəkəcəyi hesablanmışdı. Lakin dövlətimiz bütün Qarabağda sürətli abadlıq işlərinə start verdi, işğaldan azad edilən digər rayonlardakı kimi Füzuli rayonunu az bir müddətdə yenidən yaşanacaq vəziyyətə gətirdi.

Bu il Füzulinin Dövlətyarlı, Pirəhmədli və Dədəli kəndlərində də quruculuq işlərinə başlandı. 2026-cı ilə qədər isə rayonun 10 kəndinin bərpası nəzərdə tutulur. 38 binalıq ilk yaşayış məhəlləsinin 18 binasının isə bu ilin sentyabrında təhvil veriləcəyi planlaşdırılıb. Qısa müddətdə Füzulidə Mərkəzi Xəstəxananın və peşə liseyinin tikintisinə də başlanıldı. Həmçinin baş plan çərçivəsində şəhərə bütün istiqamətlərdən girişçıxışı təmin edən nəqliyyat şəbəkəsi qurulacaq. Qələbə parkı, Füzuli Meydanı, Memorial parkın yaradılması və yaşıl zolaqlar vasitəsilə bu ərazilərin bir-biri ilə əlaqələndirilməsi nəzərdə tutulur.

Şəhərdaxili yolların ümumi uzunluğunun 87 kilometr olması nəzərdə tutulur. İlkin mərhələdə isə 18, 5 kilometr yolun tikintisi planlaşdırılmışdı. Prospektlər 4 zolaqlı yol, küçələr isə 2 zolaqlıdır, piyadaların rahat hərəkət etməsi üçün bütün imkanlar yaradılıb. Piyada yolları, yaşıllıq zolaqları, ictimai nəqliyyatın rahat hərəkəti üçün zolaqlar, həmçinin velosiped yollarının da tikintisi yüksək sürətlə davam edir.

Füzuli şəhərində də inşa edilən təhsil ocağında son tamamlama işləri görülür. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, akt zalı, idman zalı, yeməkxana, kitabxana yaradılıb. Paralel olaraq Özbəkistan Füzulidə 3 hektar ərazini əhatə edən 960 şagird yerlik məktəbin tikintisini yüksək sürətlə davam etdirir. Yaxın günlərdə bu məktəbin tikintisinin də sonlanması planlaşdırılır.

Bütün bu işlər minalı ərazilərin sürətlə təmizlənməsi nəticəsində baş verir. Belə ki, artıq bu ilin birinci rübündə 622 hektar ərazi minalardan təmizlənib. Füzuli şəhərində məskunlaşma prosesi mərhələli şəkildə və daha tez başlayacaq. Füzulinin ümumilikdə 50 minlik əhalisi olan bir şəhər olacağı planlaşdırılır. Hazırda Füzulidə 6 məhəllə inşa olunub. 38 binada tikinti-quraşdırma əməliyyatları sürətlə aparılır. Həmin yaşayış sahəsinə ilin sonunadək 800 ailənin köçürülməsi nəzərdə tutulur. Köçürülmə prosesi iki mərhələdə planlaşdırılır. Sentyabr ayına kimi reallaşacaq birinci mərhələdə 260 ailənin məskunlaşdırılması gözlənilir. Bu günlərdə Füzuli ilk sakinlərini qəbul edəcək. İlk dəfə olaraq Qarabağa köç fərdi evlərə deyil, çoxmənzilli binalara baş tutacaq.

Qeyd edək ki, MİDA tərəfindən tikilən Füzuli yaşayış kompleksinin ümumi sahəsi 8,9 hektardır və 6 məhəllədə 38 yaşayış binasından ibarətdir. Bütün mənzillər tam təmirli, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz olunmuş vəziyyətdə keçmiş məcburi köçkünlərə veriləcək. Mənzillər həm də mərkəzləşdirilmiş qazanxana vasitəsilə istilik və məişət üçün isti su ilə təmin olunub. Yaşayış binaları ilə yanaşı, ərazidə park, yeraltı və yerüstü avtodayanacaqlar, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək.

Avqustun 5-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Füzuli şəhərinə birinci mərhələdə köçürüləcək ailələr arasında püşkatma da keçirilmişdi. Püşkatmada 144 ailə (509 nəfər) iştirak edib. Ailə tərkibinə uyğun olaraq, onlardan 51-i ikiotaqlı, 76-sı üçotaqlı, 17-si dördotaqlı mənzil ilə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar.

***Lalə Mehralı***

SON SƏHİFƏ

SƏS

18 avqust
2023-cü il

# Ata-ana qayğısına qalmaq övladın mənəvi borcudur!





**“Azərbaycanda valideynlərin övladlarını yüklədiyinə dair iddialarla razılaşa bilmərəm. Əksinə, bizim ölkədə valideynlər ömürlərinin sonuna kimi övladlarının qarşısında öhdəlik daşıyırlar”. Bu sözləri SİA-ya açıqlamasında Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə deyib.**

Onun sözlərinə görə, Azərbaycan üçün xarakterik olan belə bir deyim var ki, ”Azərbaycanda insanlar əvvəlcə övladları, sonra nəvələri, ömür vəfa etsə nəticələri üçün yaşayırlar”: ””Səni böyütmüşəmsə, mütləq mənə baxmalısan” ifadəsi bir qədər primitiv səslənir. Yaşlı valideynin qayğısına qalmaq, ona dəstək olmaq övladın mənəvi borcudur. Bunu dramatikəşdirməyə ehtiyac yoxdur.

Bunun üçün də valideyn zamanında övladına düzgün tərbiyə verməli, ona düz yolu göstərməlidir. Övladın ata-anasının qeydinə qalmasında pis nə var ki?! Övlad mütləq əyri yola düşməli, əyyaşlıq etməli və meşşan həyat tərzi keçirməlidir?!”.

Seymur Verdizadə sözlərinə belə davam edib: ”Bu düşüncədə olan adamların marağı Azərbaycanda ailə institunu zədələmək, ailədaxili xaos yaratmaqdır. Onlar məsuliyyətsiz və bivec adamlardır. Biz böyüyə hörmət, kiçiyə mərhəmət göstərən ailələrimizlə birlikdə güclüyük.

Valideyn-övlad münasibətləri sağlam əsaslar üzərində qurulmalıdır. Tərəflər bir-birlərinin hüquqlarına hörmətlə yanaşmalıdırlar. Niyə övlad valideynin, yaxud valideyn övladının qeydinə qalmamalıdır?! Bu düşüncəni təbliğ edənlər cəmiyyət üçün yararsız ünsürlərdir”.


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# ”Mançester Siti” Avropa Superkubokunun qalibi olub

İngiltərənin ”Mançester Siti” və İspaniyanın ”Sevilya” klubları arasında futbol üzrə UEFA Superkuboku uğrunda görüş keçirilib. SİA xəbər verir ki, komandalar Yunanıstanın Pirey şəhərindəki Georgios Karaiçkakis stadionunda çıxış ediblər. Görüşü baş hakim Fransua Leteksye (Fransa) rəhbərlik etdiyi hakimlər briqadası idarə edib.Matçın 25-ci dəqiqəsində ”Sevilya”nın hücumçusu Yussef En-Nesiri Markos Akunyanın ötürməsi ilə hesabı açıb.



63-cü dəqiqədə ”Mançester Siti”nin yarımmüdafiəçisi Koul Palmer Rodrinin dəqiq ötürməsi ilə hesabı bərabərləşdirib.

Matçın qalan vaxtında komandaların hər birinin qol vurub önə keçmək şansları olsa da, buna nail ola bilməyiblər. Görüş penaltilər seriyasına keçib.Penaltilər seriyasında isə ”şəhərlilər” daha dəqiq olublar. Belə ki, həlledici penaltini Qudel reallaşdıra bilməyib.

# Parkda öpüşmək ictimai asayişi pozurmu?

*VƏKİL AÇIQLADI*

“Nulla poena sine lege (latınca Qanunsuz cəza yoxdur) prinsipi - heç kəsin qanunla qadağan edilməyən hərəkətə görə cəzalandırıla bilməməsini nəzərdə tutan hüququn təməl prinsiplərindən biridir. Bu prinsip müasir demokratik dövlətlərdə hüququn aliliyinin başlıca tələbi kimi qəbul edilmiş və qanunvericilikdə təsbit olunmuşdur”. Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.

Onun sözlərinə görə, digər bir prinsip isə Nulla poena sine lege certa (Aydın müəyyən edilmiş qanun olmadan cəza verilə bilməz) prinsipidir: ”Bu prinsipə görə, cəza qanunu cinayət hesab olunan hərəkətləri və onlara görə veriləcək cəzanı kifayət qədər aydın müəyyən etməlidir ki, bu, vətəndaşlara hansı hərəkətlərin cəzalandırıla biləcəyini əvvəlcədən görməyə imkan versin və vətəndaşlar da buna uyğun hərəkət etsinlər. Bu qayda cinayət hüququnda hüququn ümumi prinsiplərindən olan hüquqi müəyyənliyin mövcudluğunu tələb edir”.

Turan Abdullazadə sözlərinə belə davam edib: ”İctimai yerlərdə öpüşən gənclər zaman-zaman polis təzyiqi ilə üzləşirlər. Polislər onlara yaxınlaşaraq bəzən xəbərdarlıq edir, bəzən



isə ”ictimai asayişin pozulması”nı iddia edərək qanun pozuntusu kimi qiymətləndirir və gəncləri polis bölməsinə dəvət edir. Hesab edirəm ki, bu, qanunsuzdur və hüquqa ziddir. Ümumiyyətlə, qanunvericilikdə öpüşməyi qadağan edən heç bir norma olmadığı üçün belə demək olar ki, ictimai yerdə öpüşmək ”ictimai asayişin pozulması” kimi qiymətləndirilə və buna görə cəza tətbiq edilə bilməz. Lakin İnzibati Xətalar Məcəlləsində belə bir maddə var: polis işçisi və ya hərbi qulluqçu ictimai qaydanın mühafizə vəzifələrini icra edərkən, onların qanuni tələblərinə qəsdən tabe olmamağa görə- fiziki şəxslər iki yüz manat məbləğində cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət hesab edilmədikdə bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

İctimai qayda geniş mənada - ictimai quruluş kimi, ona xas olan bütün iqtisadi və ictimai münasibətlərin sistemi (məcmusu) kimi başa düşülür. İctimai qayda dedikdə bütün sosial əlaqələr və münasibətlər sistemi başa düşülür. Yəni, gənclər nəzərə almalıdırlar ki, onlar ictimai yerdə hər hansı hərəkət edərkən digərlərinin narahatçılığına və diskomfortuna səbəb ola bilərlər. (Məsələn, azyaşlı yeni dərk etməyə başlayan uşaqları ilə axşam gəzintisinə çıxan bir ailə niyə uşaqlarının gözü qarşısında belə bir mənzərənin şahidi olmalıdır?) Həmçinin bu birgəyaşayış və etik davranış qaydalarına da uyğun deyil. İctimai asayiş və ictimai qaydanı mühafizə edən polis əməkdaşı normal bir formada mədəni şəkildə yaxınlaşıb xəbərdarlıq edirsə və iradını bildirirsə bu çox normal qarşılanmalıdır. Lakin buna görə öpüşən şəxsləri polis bölməsinə aparmaq və cərimələmək qanuna ziddir.

Unutmamaq lazımdır ki, bizim hüquqlarımız başqasının hüquqlarına müdaxiləmizin başladığı yerdə bitir. Həmçinin, öpüşmə zor tətbiqi və ya seksual xarakterli hərəkətlərin müşayiəti altında baş verirsə, məsuliyyət də yarada bilər”.

***Ayşən***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**